## Jurnalist vəsiqələri 3 ildən bir yenilənəcək

Yalnız Media Reyestrinə daxil edilmiş jurnalistlərə Medianın İnkişafı Agentliyi tərəfindən jurnalist vəsiqəsi veriləcək



**"Jurnalist vəsiqəsinin forması"nın və "Jurnalist vəsiqəsinin verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə Qaydası" təsdiq edilib.**

Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, eyni zamanda beynəlxalq praktikaya uyğun olaraq jurnalistlərin könüllülük əsasında Media Reyestrinə daxil edilməsi nəzərdə tutulub ki, Media Reyestrinə daxil edilmiş jurnalistlərə Medianın İnkişafı Agentliyi tərəfindən jurnalist vəsiqəsi veriləcək.

(səh.2)

## Əsirlərin növbəti mübadiləsi baş tutub

Ukrayna daha 32 hərbçisini əsirlikdən qaytarıb



**Dünən Ukrayna və Rusiya arasında əsirlərin növbəti mübadiləsi baş tutub.**

APA xəbər verir ki, bu barədə Ukrayna Prezident Ofisinin rəhbəri Andrey Yermak "Facebook"da bildirib.

Onun sözlərinə görə, Rusiya daha 32 ukraynalı hərbçini sərbəst buraxıb, eyni zamanda, müharibəyə könüllü gedən İsrail vətəndaşı Dmitri Fialkanın isə meyiti qaytarılıb.

№ 185 (5706), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 12 oktyabr 2022-ci il (çərşənbə)



# Payız-qış mövsümü təhlükəlidir

Pandemiyanın bitdiyini söyləmək hələ tezdir

**Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus hesab edir ki, bir neçə həftədir dünyada yoluxma və ölüm hallarının azalmasına baxmayaraq, ölkələr koronavirusa qarşı peyvəndləri davam etdirməlidir.**

O, bunu təşkilatın Şərqi Aralıq dənizi ölkələri üzrə Komitəsinin 69-cu sessiyasında deyib:

"Biz bütün ölkələrdə COVID-19 peyvəndi ilə 70 faiz əhatə olunması hədəfinə doğru irəliləyərkən ÜST-yə üzv ölkələri prioritet məsələ olaraq bütün səhiyyə işçilərini və yaşlı insanları peyvənd etməyə çağırmağa davam edirik". "Biz heç vaxt qlobal fövqəladə vəziyyət kimi COVID-19 pandemiyasına son qoyacağımız qədər yaxşı vəziyyətdə olmamışıq", - təşkilat rəhbəri əlavə edib...

(səh.3)



## Qırğızıstan - Azərbaycan əməkdaşlığı ən yüksək səviyyədədir

Prezident İlham Əliyev Bişkekdə qırğız həmkarı Sadır Japarovla mətbuata birgə bəyanatlarla çıxış ediblər

**"Qırğızıstana hazırkı səfərim böyük əhəmiyyət kəsb edir. Bu mənim Qırğızıstana ilk rəsmi dövlət səfərimdir".**

Bu barədə Qırğızıstana səfər edən Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə qırğız həmkarı Sadır Japarovla mətbuata birgə bəyanatlarla çıxış edərkən bildirib. Dövlət başçısı bildirib ki, Bakı görüşündə əldə olunmuş razılaşmaların bir hissəsi artıq reallaşdırılıb:

"Qırğızıstan-Azərbaycan İnkişaf Fondunun yaradılması investisiyaların, iş yerlərinin artmasına xidmət edəcək. Həmçinin, ticari-iqtisadi sahədə əməkdaşlığın inkişafı üçün zəmin yaradacaq. Azərbaycan-Qırğızıstan münasibətlərinin belə dinamikası ondan xəbər verir ki, biz qarşılıqlı əməkdaşlıq potensialını artırmaq əzmindəyik".

(səh.2)

## Kremlin təşəbbüsü...

Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirləri Astanada görüşəcəklər



**Ermənistan, Azərbaycan və Rusiya xarici işlər nazirlərinin növbəti görüşü oktyabrın 14-də Astanada keçiriləcək.**

Bu barədə Erməmistan XİN-in mətbuat xidmətindən bildirilib.

Qeyd edilib ki, görüş Rusiya tərəfinin təşəbbüsü ilə baş tutacaq.

Xatırladaq ki, Sergey Lavrov, Ararat Mirzoyan və Ceyhun Bayramov sonuncu dəfə Düşənbədə MDB Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində üçtərəfli formatda görüşüblər.

# ABŞ da sülhə yol açır

İlin sonunadək Azərbaycanla Ermənistan arasında müqavilə imzalana bilər




"Erməni əhali ilə təmaslar qurmaq, birgəyaşayışın bünövrəsini formalaşdırmaq lazımdır"

**Oktyabrın 10-da ABŞ dövlət katibi Entoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı Blinken son dövrlərdə keçirilmiş görüşləri davamlı sülh müqaviləsinə doğru müsbət addımlar kimi səciyyələndirib. Bu xüsusda Cenevrədə xarici işlər nazirləri və Praqada liderlər səviyyəsində keçirilmiş görüşlərin əhəmiyyətini vurğulayıb. Dövlət katibi həmçinin, ABŞ Prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivanın təşəbbüsü ilə Ağ Evdə Azərbaycan və Ermənistan nümayəndələri arasında keçirilmiş görüşün əhəmiyyətini qeyd edib.

(səh.3)

# Millət vəkili TƏBİB-ə səsləndi

"Adrenalin" adında dərman yoxdur, 10-larla cərrahiyyə əməliyyatı dayandırılıb"



**"Azərbaycanda dərman çatışmazlığı problemi var". Bu barədə millət vəkili Rüfət Quliyev deyib. Deputat bildirib ki, iclas başlayandan ona bir neçə həkim məlumat göndərib:**

"Bu müraciətlər TƏBİB-ə aiddir.

Bu gün bir aydan çoxdur ki, "Adrenalin" adında dərman yoxdur. Bu gün 10-larla cərrahiyyə əməliyyatı dayandırılıb. Bu gün hansısa işbazlar 1 manatlıq olan bu dərmanı 100-150 manata satırlar. İkincisi, qlükoza və hidrogen xlorofil fizioloji məhlul dərmanı tapılmır.

(səh.5)



## Layihə səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib

Toy aparıcıları, bərbər və dərzilər, taksi sürücüləri 12 manat tibbi sığorta haqqı ödəyəcəklər

Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq və rəqqaslıq və digər oxşar fəaliyyət, məişət avadanlığı təmiri ilə məşğul olanlar, çəkməçi, dərzi və bərbər fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən icbari tibbi sığorta haqqı "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" alınarkən ödəniləcək.

Bu, Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan və "Tibbi sığorta haqqında" qanuna təklif olunan dəyişiklikdə əksini tapıb.

(səh.2)

## 3 nəfər ölüb

Son sutkada 92 nəfər koronavirusa yoluxub

**Azərbaycanda koronavirus infeksiyasına (COVID-19) son sutkada 92 yeni yoluxma faktı qeydə alınıb, 94 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, test nəticələri müsbət çıxmış 3 nəfər ölüb.

İndiyədək ölkədə ümumilikdə 822 278 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 811 821 nəfər müalicə olunaraq sağalıb, hazırda 526 aktiv xəstə var. Bu günə qədər 9 931 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 3 313, bu günə qədər isə ümumilikdə 7 277 812 test icra olunub.*

## Lənkəranda itkin düşən 18 yaşlı hamilə gəlin tapılıb



**Lənkəranda bir müddət öncə itgin düşən 18 yaşlı gəlin tapılıb.**

Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Lənkəran regional qrupunun baş inspektoru, polis kapitanı Məhəmməd Rzayev məlumat verib.

Məlumata görə, Lənkəran polisinin keçirdiyi təxirəsalınmaz tədbirləri nəticəsində Lamiyə Valeh qızı Məmmədova ölkə ərazisindən tapılaraq ötən gecə ailəsinə təhvil verilib.

*Qeyd edək ki, Lənkəran rayonunun Velədi kənd sakini, 2004-cü il təvəllüdlü Lamiyə Valeh qızı Məmmədova 20 gün öncə evdən çıxaraq, geri qayıtmayıb. L.Məmmədovanın hamilə olduğu bildirilir.*



## "Artıq dünya telefonun ekranındadır"

Dünyanın nüfuzlu META şirkətində çalışan azərbaycanlı Cəfər Cəfərov texnologiyaya maraq salmış yeniyetmələrə tövsiyələr verdi

(səh.4)



## Azərbaycanda İslam bankçılığını tətbiq etmək mümkün deyil

Əvvəla, bu sahədə qanunvericilik bazası olmalıdır, ikincisi isə sahibkarlıq fəaliyyəti şəffaf olmalıdır

(səh.5)



"Çin-Qırğızıstan-Özbəkistan-Xəzər dənizi dəmir yolunun istifadəyə verilməsi ticarət dövriyyəsini artıracaq"

Prezident bəyan edib ki, Çin-Qırğızıstan-Özbəkistan-Xəzər dənizi dəmir yolunun istifadəyə verilməsi ticarət dövriyyəsini artıracaq: "Biz detallı şəkildə geniş spektrli məsələləri müzakirə etmişik. Mədəni-humanitar əməkdaşlıqdan başlamış, iqtisadi, nəqliyyat sahəsində əməkdaşlıq və təhsillə bağlı məsələlər, yüksək texnologiyalara aid məsələlər də bura daxildir. Çin-Qırğızıstan-Özbəkistan-Xəzər dənizi dəmir yolunun tikintisi və istifadəyə verilməsi ilə ticarət dövriyyəsinin həcminin artması və yükdaşımanın qiymətinin aşağı düşməsi üçün yeni imkanlar yaranacaq. Biz qardaş Qırğızıstanı, eyni zamanda, digər əməkdaşlıq edən ölkələri bu vacib layihənin reallaşdırılması münasibətilə təbrik edirik". Dövlət başçısı Qırğızıstan Prezidenti ilə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq barədə fikir mübadiləsi apardıqlarını da vurğulayıb.

# Qırğızıstan - Azərbaycan əməkdaşlığı ən yüksək səviyyədədir

## Prezident İlham Əliyev Bişkekdə qırğız həmkarı Sadır Japarovla mətbuata birgə bəyanatlarla çıxış ediblər

**"Qırğızıstana hazırkı səfərim böyük əhəmiyyət kəsb edir. Bu mənim Qırğızıstana ilk rəsmi dövlət səfərimdir". Bu barədə Qırğızıstana səfər edən Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə qırğız həmkarı Sadır Japarovla mətbuata birgə bəyanatlarla çıxış edərkən bildirib. Dövlət başçısı bildirib ki, Bakı görüşündə əldə olunmuş razılaşmaların bir hissəsi artıq reallaşdırılıb:**

"Qırğızıstan-Azərbaycan İnkişaf Fondunun yaradılması investisiyaların, iş yerlərinin artmasına xidmət edəcək. Həmçinin, ticari-iqtisadi sahədə əməkdaşlığın inkişafı üçün zəmin yaradacaq. Azərbaycan-Qırğızıstan münasibətlərinin belə dinamikası ondan xəbər verir ki, biz qarşılıqlı əməkdaşlıq potensialını artırmaq əzmindəyik". Qırğızıstanlı həmkarı Sadır Japarovun yarım il bundan əvvəl Azərbaycana səfərini xatırladan dövlət başçısı deyib ki, bu səfər zamanı ölkələrimiz arasında imzalanan strateji tərəfdaşlıq haqqında Bəyannamə əlaqələrimizi daha yüksək səviyyəyə qaldırıb: "Əminəm ki, mənim səfərimin yekunlarına dair əldə olunacaq razılaşmalar bir çox sahələrdə əməkdaşlığın dərinləşməsinə kömək edəcək".

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan Qırğızıstanda investisiya layihələrində maraqlıdır. Dövlət başçısı qeyd edib ki, əmtəə dövriyyəsinin göstəriciləri qaneedici deyil: "Lakin fikrimcə, bizim nəzərdə tutduğumuz planlar qısa zaman kəsiyində qarşılıqlı ticarətin həcmini artırmağa imkan verəcək. Azərbaycan, həmçinin Sizin ölkədə investisiya layihələrində maraqlıdır. Biz bu gün bunu da müzakirə edərik".

**"Azərbaycan-Qırğızıstan əməkdaşlığının əlamətdar məqamları münasibətlərin qardaş xarakterini ifadə edir"**

Ölkə rəhbəri qeyd edib ki, Azərbaycan-Qırğızıstan əməkdaşlığının əlamətdar məqamları münasibətlərin qardaş xarakterini ifadə edir: "Mən Azərbaycan dövlətinin banisi Heydər Əliyevin xatirəsinə hörmətə görə Sizə xüsusi təşəkkür bildirmək istəyirəm. Bişkekin böyük məktəblərindən birinə onun adı verilib". Qırğızıstanda Qırğız-Azərbaycan Dostluq Parkının, Nizami Gəncəvi adına məktəbin açılacağını qeyd edən dövlət başçısı bildirib ki, əməkdaşlığımızın bütün bu əlamətdar məqamları Azərbaycan xalqının dərin minnətdarlığına səbəb olur və münasibətlərin qardaş xarakterini ifadə edir. Azərbaycan Prezidenti ölkələrimizin bundan sonra da səmərəli əməkdaşlıq edəcəyinə əminliyini vurğulayıb.

**"Qırğızıstan Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləyib"**

Qırğız Respublikasının Prezidenti Sadır Japarov deyib ki, Qırğızıstan Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləyib: "Qırğızıstan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünə dair mövqeyinə həmişə tərəfdar olub. Biz Sizə ona görə minnətdarıq ki, Siz Qırğızıstanın bütün təşəbbüslərini beynəlxalq arenada dəstəkləyirsiniz. Bizim ölkələrimiz BMT, ATƏT, ŞƏT, TDT, İƏT və Qoşulmama Hərəkatı kimi nüfuzlu beynəlxalq təşkilatlarda və strukturlarda aktiv qarşılıqlı fəaliyyət göstərir. Əminəm ki, əməkdaşlığımızın yüksək səviyyəsi uzunmüddətli olacaq".

**İsmayıl**

# Prezidentin Qırğızıstan səfəri tarixi hadisədir

## "Hazırda türk ölkələri təşkilatının rıçaqlarının real olaraq işə salınma prosesi gedir"



**Prezident İlham Əliyev Qırğızıstana səfər edib. Bişkekdə Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın geniş tərkibdə iclası başa çatdıqdan sonra tərəflər arasında ticarət, sənaye, qardaşlıq əlaqələrinin qurulması, ətraf mühitin mühafizəsi, məcburi dövlət sosial sığortası, bitki karantini sahəsində əməkdaşlığa dair bir sıra sənədlər imzalanıb.**

Qırğızıstan Prezidenti Sadır Japarov vurğulayıb ki, dövlətlərarası Şuranın ilk iclasının keçirilməsi iki ölkə arasında siyasi, ticarət-investisiya, mədəni-humanitar sahələrdə əməkdaşlığın fəal inkişafının bariz göstəricisi olacaq.

O, eyni zamanda, Qırğızıstanın qardaş Azərbaycanla sistemli və uzunmüddətli əməkdaşlıq niyyətində olduğunu və strateji sektorlarda ciddi əməkdaşlığa hazır olduğunu da diqqətə çatdırıb.

Qırğızıstanda Qırğız-Azərbaycan Dostluq Parkının, Nizami Gəncəvi adına məktəbin açılacağını qeyd edən dövlətimizin başçısı İlham Əliyev isə bildirib ki, əməkdaşlığımızın bütün bu əlamətdar məqamları Azərbaycan xalqının dərin minnətdarlığına səbəb olur və münasibətlərin qardaş xarakterini ifadə edir. Ölkə rəhbərimiz dövlətlərin bundan sonra da səmərəli əməkdaşlıq edəcəyinə əminliyini ifadə edib.

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli ölkə başçısının Qırğızıstan səfərindən "Şərq"ə danışarkən bildirib ki, prezidentin bu səfəri birbaşa dünyada və regionda baş verən proseslərlə bağlıdır:** "Aprel ayında Azərbaycan və Qırğızıstan arasında ciddi bir strateji əməkdaşlıq sazişi imzalanıb. Ondan sonra belə bir səfərin baş verməsi yeni dünya nizamında türk ölkələri birliyinin ayrıca rolu olduğunu göstərir. Qırğızıstan KTMT-nin üzvüdür. Buna baxmayaraq o, hərbçilərinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) 10 oktyabrda Tacikistanda başlatdığı "Sərhəd-2022" birgə təlimində iştirak etmədi. Eyni zamanda Ermənistanın 14 sentyabrda sərhəddə törətdiyi təxribatlar zamanı bu ölkə Qazaxıstanla birlikdə Azərbaycana ciddi dəstək nümayiş etdirdi.

KTMT üzvü kimi Qırğızıstan və Tacikistan arasındakı toqquşma da önəmlidir. Hesab edirəm ki, Azərbaycan-Türkiyə-İran üçbucağında baş verən qarşıdurmanın müəyyən bir hissəsi hazırda Tacikistana köçürülməkdədir. Onların vasitəsilə anti-sülh məsələsini gündəmdə saxlamağa çalışırlar. Digər tərəfdən artıq Qırğızıstan-Özbəkistan arasında sovetdən qalan şirin su hövzələri ilə bağlı yaranmış münaqişə də öz həllini tapıb. Bunlara əsasən deyə bilərik ki, deyəsən, bütün türk dövlətləri arasındakı münaqişəli vəziyyətin aradan qaldırılmasına yönəlik iş həyata keçirilir. Hazırda türk ölkələri təşkilatının rıçaqlarının real olaraq işə salınma prosesi gedir".

*Ekspert diqqətə çatdırıb ki, Rusiya-Ukrayna müharibəsinin fonunda Qırğızıstan, Azərbaycan, eləcə də, Orta Asiyanın digər ölkələri formalaşacaq yeni dünya düzəninə hazırlıqlı olmalıdırlar:* "Bunun da ilk işartısını biz Praqadakı sammitdə gördük. Ümumi şəkildə bu münasibətlərin içində həllini tapacaq bir sıra məsələlər var. İndi Azərbaycan da türk dünyasına inteqrasiya yolunda Qırğızıstan ilə ciddi bir əməkdaşlıq yaratmaq niyyətindədir. Azərbaycan-Türkiyə münasibətləri qədər, Qırğızıstan-Türkiyə münasibətləri də xüsusi önəm daşıyır. Sanki bu yöndə hərbi üçbucaq formalaşdırılır".

**Günəş Mərd**

# Zaxarova təəssüflənir

## Rusiya Aİ-nin Ermənistan-Azərbaycan sərhədinə missiya göndərməsinə qarşıdır



**Rusiya Avropa İttifaqının Ermənistanın Azərbaycanla sərhədinə mülki missiya göndərməsinə münasibət bildirib.**

APA-nın Moskva müxbiri xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə Ermənistanın təklifi ilə Aİ sərhəd missiyasının göndərilməsi ilə bağlı suala cavabında bu məlumatdan xəbərdar olduğunu bildirib.

"Anladığım qədər Avropa İttifaqında bununla bağlı formal qərar hələlik qəbul olunmayıb. Biz buna təəssüflər olsun ki, Avropa İttifaqının Bakı ilə İrəvan arasında münasibətlərin nizamlanmasına növbəti dəfə bütün vasitələrlə mane olmaq, Rusiyanın vasitəçilik səylərini məhdudlaşdırmaq cəhdi kimi baxırıq. Əlbəttə ki, bu, suveren dövlətlərin məsələsidir. Onlar öz münasibətlərini qururlar", - Rusiya XİN sözçüsü vurğulayıb.

# Layihə səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib

## Toy aparıcıları, bərbər və dərzilər, taksi sürücüləri 12 manat tibbi sığorta haqqı ödəyəcəklər



**Toylarda, şənliklərdə və digər təbirlərdə aparıcılıq, çalğıçılıq və rəqqaslıq və digər oxşar fəaliyyət, məişət avadanlığı təmiri ilə məşğul olanlar, çəkməçi, dərzi və bərbər fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən icbari tibbi sığorta haqqı "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" alınarkən ödəniləcək.**

Bu, Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan və "Tibbi sığorta haqqında" qanuna təklif olunan dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, həmçinin Azərbaycan ərazisində fərdi qaydada (muzdlu işçi cəlb etmədən) avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən fiziki şəxslər, yəni mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə ölkə ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər tərəfindən icbari tibbi sığorta haqqı "Fərqlənmə nişanı" alınarkən ödəniləcək.

Beləliklə, bu sənədin qəbulu ilə bu kateqoriyadan olan fiziki şəxslər minimum əməkhaqqının 4%-i miqdarında (12 manat) məbləğ ödəməklə icbari tibbi sığortanın xidmətlərindən bəhrələnə biləcəklər.

Layihə səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

# Jurnalist vəsiqələri 3 ildən bir yenilənəcək

## Yalnız Media Reyestrinə daxil edilmiş jurnalistlərə Medianın İnkişafı Agentliyi tərəfindən jurnalist vəsiqəsi veriləcək




**"Jurnalist vəsiqəsinin forması"nın və "Jurnalist vəsiqəsinin verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə Qaydası" təsdiq edilib. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.**

Qərara əsasən, eyni zamanda beynəlxalq praktikaya uyğun olaraq jurnalistlərin könüllülük əsasında Media Reyestrinə daxil edilməsi nəzərdə tutulub ki, Media Reyestrinə daxil edilmiş jurnalistlərə Medianın İnkişafı Agentliyi tərəfindən jurnalist vəsiqəsi veriləcək. Jurnalist vəsiqəsi jurnalistlərin tanınan hüquqlarının müdafiəsi mexanizminin təkmilləşdirilməsi və daha operativ təşkil edilməsi, onların inkişafına dəstək layihələrinin iqtisadi və hüquqi əsaslandırmasının formalaşdırılması, akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədi daşıyır.

**"Ödənişin məbləği 20 (iyirmi) manat təşkil edəcək"**

Vəsait jurnalist vəsiqəsinin verilməsinə və ya dəyişdirilməsinə görə Agentliyin bank hesabına edilən ödənişlər hesabına formalaşdırılacaq. Jurnalist vəsiqəsinin verilməsinə və dəyişdirilməsinə görə ödənişin məbləği 20 (iyirmi) manat təşkil edəcək. Növbəti il üçün Agentliyin əldə edəcəyi vəsait üzrə gəlir və xərclər smetası hər il dekabr ayının 20-dən gec olmayaraq Agentliyin İcraçı direktoru tərəfindən təsdiq ediləcək. Agentlik müvafiq qanunlarda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra sərəncamında qalan vəsaiti ilk növbədə fəaliyyətinin, o cümlədən işçilərinin əməkhaqqı fondunun maliyyələşdirilməsinə istifadə edəcək. Vəsait işçilərin sosial müdafiəsinin gücləndirilməsinə və Agentliyin işçilərinin kollektiv mükafatlandırılmasına da sərf olunacaq. Vahid jurnalist vəsiqəsi üçün ödənişin məbləği müəyyənləşib.

**"Jurnalistlər vəsiqəni almadan da maneəsiz fəaliyyət göstərəcək"**

Jurnalistlər reyestrə daxil edilmədən və müvafiq vəsiqəni almadan da maneəsiz fəaliyyət göstərə biləcəklər. Medianın İnkişafı Agentliyinin (MEDİA) Media Reyestri xidmətinin rəhbəri Cahangir Həsənli Reyestrə düşməyəcək və müvafiq olaraq, jurnalist vəsiqəsi almayacaq şəxslərin aqibəti ilə bağlı danışarkən deyib ki, şəxsin jurnalist kimi fəaliyyət göstərməsi üçün onun Media Reyestrinə daxil edilməsi imperativ xarakter daşımır: "Başqa sözlə, bizim təqdim edəcəyimiz vəsiqə şəxsin jurnalist olduğunu təsdiqləmir, sadəcə, onun haqqında qanunla nəzərdə tutulan məlumatların Media Reyestrində olduğunu göstərir".

Onun sözlərinə görə, bu vəsiqə rəsmi peşəkarlıq meyarı və ya digər vəsiqələri istisna edən sənəd kimi qəbul edilməməlidir. Media subyektləri əməkdaşına öz redaksiya vəsiqələrini verməkdə sərbəstdir. Bir sözlə, jurnalistlər Media Reyestrinə daxil edilmədən və müvafiq vəsiqəni almadan da fəaliyyətlərini maneəsiz, qanunla müəyyən edilmiş bütün müdafiə mexanizmlərindən istifadə etməklə həyata keçirə biləcəklər".

**Media reyestr şəhadətnamələri müddətsiz olaraq veriləcək**

Medianın İnkişafı Agentliyinin mətbuat katibi Səidə Şəfiyeva deyib ki, jurnalist vəsiqəsi 3 illik verilir. Onun sözlərinə görə, vəsiqə 3 ildən bir yenilənəcək. Media reyestr şəhadətnamələri isə müddətsiz olaraq veriləcək: "Media subyekti Agentliyə müraciət edərək reyestrə daxil olmalıdır və bundan sonra ona media reyestri şəhadətnaməsi təqdim ediləcək. Jurnalistlər reyestrə daxil olduqdan sonra vəsiqəni almaq üçün fərdi qaydada Agentliyə müraciət etməlidirlər. Ödənişin məbləği 20 manat təşkil edir".

**İsmayıl**

# Ağcabədidə 115 artezian quyusu batıb, işləmir

## Aqil Abbas Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətini fəaliyyətsizlikdə suçlayıb

**"Ağcabədidə artezian quyusu üçün Yaponiya səfirinə müraciət edim?".**

**Bu sözləri Milli Məclisin dünən keçirilən iclasında deputat Aqil Abbas deyib. Parlament üzvü vurğulayıb ki, Ağcabədidə 115 artezian quyusu batıb, işləmir. Deputat bildirib ki, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti cəmi 11 artezian quyusunun təmirinə pul ayırıb:**



"Camaat deputatdan da, başçıdan da artezian istəyirlər. Mən başa sala bilmirəm ki, mən artezian quran deyiləm. Necə ola bilir ki, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində Əhmədzadənin vaxtında bu işlər vaxtında görülürdü, amma indi görülmür? Bu camaata əkib-bıçməyə su lazımdır. Ölkədə su çatışmazlığı var idi. Qabaq Yaponiya Ağcabədidə bir-iki artezian quyusu vurmuşdu. Biz yenə Yaponiyaya müraciət edək? Gərək Yaponiya səfirinə müraciət edim ki, Ağcabədidə yenə artezian quyusu vursun, bu camaat kənddən köçüb getməsin?! Şəmkirin kəndlərində də belə problemlər var".

Sədr Sahibə Qafarova da məsələyə reaksiya verib: "Şəmkiri mənə görə vurğulayırsınız? Bütün kəndlərdə bu cür problemlər var". Xatırladaq ki, Sahibə Qafarova 98 saylı Şəmkir şəhər seçki dairəsindən deputat seçilib.

**İsmayıl**

# ABŞ da sülhə yol açır

## İlin sonunadək Azərbaycanla Ermənistan arasında müqavilə imzalana bilər



### Erməni əhali ilə təmaslar qurmaq, birgəyayışın bünövrəsini formalaşdırmaq lazımdır

**Oktyabrın 10-da ABŞ dövlət katibi Entoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı Blinken son dövrlərdə keçirilmiş görüşləri davamlı sülh müqaviləsinə doğru müsbət addımlar kimi səciyyələndirib. Bu xüsusda Cenevrədə xarici işlər nazirləri və Praqada liderlər səviyyəsində keçirilmiş görüşlərin əhəmiyyətini vurğulayıb.**

Dövlət katibi həmçinin, ABŞ Prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivanın təşəbbüsü ilə Ağ Evdə Azərbaycan və Ermənistan nümayəndələri arasında keçirilmiş görüşün əhəmiyyətini qeyd edib. Azərbaycan tərəfindən 17 erməni əsirin geri qaytarılmasını müsbət addım kimi dəyərləndirən Blinken ABŞ-ın sərhədlərin delimitasiyası, nəqliyyat xətlərinin açılması və itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi, həmçinin digər humanitar məsələlərin həllində dəstək göstərməyə hazır olduğunu bildirib. Dövlət katibi eyni zamanda, konkret vaxt çərçivəsində sülh müqaviləsi üzrə danışıqların aparılmasının əhəmiyyətinə toxunub, Qarabağda yaşayan etnik erməni sakinlərin hüquqlarının və təhlükəsizliyinin təmin olunması üzrə müzakirələri təqdir edib. Blinken Azərbaycanda kütləvi məzarlığın aşkar olunduğunu qeyd edib, bununla əlaqədar dövlətimizin başçısına başsağlığı verib. Öz növbəsində Prezident İlham Əliyev Cenevrədə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında keçirilmiş birinci ikitərəfli görüşü müsbət qiymətləndirib. Dövlət başçısı, həmçinin Praqada keçirilmiş görüş nəticəsində qəbul edilmiş bəyanatın sülh prosesinə töhfə verəcəyinə ümidvar olduğunu ifadə edib. Prezident İlham Əliyev inandığını bildirib ki, əgər Ermənistan siyasi iradə nümayiş etdirərsə, bu ilin sonunadək sülh müqaviləsi imzalana bilər. Ölkə rəhbəri eyni zamanda, həm Blinkenin, həm də Ceyk Sallivanın təşəbbüsü ilə Azərbaycanla Ermənistan nümayəndələri arasında keçirilmiş görüşlərə toxunub, bunu sülhə doğru atılmış addımlar kimi qiymətləndirib. Prezident Birinci Qarabağ müharibəsindən sonra 3900-dən çox soydaşın itkin düşmüş şəxs hesab olunduğunu xatırladıb. Ermənistanın kütləvi məzarlıqların yeri barədə məlumat verməsinin vacibliyini qeyd edib. Prezident İlham Əliyev ABŞ dövlət katibindən öz imkanlarından istifadə edərək bu məsələnin həllinə nail olunmasına kömək göstərməsini xahiş edib. Dövlət başçısı deyib ki, Beynəlxalq Qızıl Xaç Komitəsində şahidlərin ifadələri və digər məlumatlar əsasında bəzi kütləvi məzarlıqların yerləri haqqında müəyyən məlumatlar var. Telefon söhbəti zamanı Azərbaycan-ABŞ əlaqələrinin gələcək inkişafı ilə bağlı müzakirələr də aparılıb. Blinken daha sonra telefonla danışdığı Ermənistanın Baş naziri Nikol Paşinyanı da sülh prosesi ilə bağlı Azərbaycanla işi davam etdirməyə çağırıb.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə açıqlamasında deyib ki, Blinken dövlət başçısı İlham Əliyevlə telefon danışığında Qarabağdakı etnik erməni sakinlərin hüquq və təhlükəsizliyinin təmin olunması üzrə müzakirələri təqdir edib. Analitikə görə, bu, Bakının Xankəndidəki ermənilərlə qeyri-formal əlaqələrin davam etdirilməsi mövqeyinin dəstəklənməsidir**: ”Hərçənd, ”ermənilərlə qeyri-formal əlaqələr”ə müəyyən aydınlıq gətirməyə ehtiyac var. Xüsusilə Nikol Paşinyanın ”Bakı və Xankəndi arasında əlaqələr qurulmalıdır” açıqlaması fonunda. Dövlət başçısı İlham Əliyevin dediyi ”qeyri-formal əlaqələr”lə Paşinyanın dediyi ”Bakı-Xankəndi formatı” arasında fərq nədir? Birincisi, hər iki tərəfin bir-birinə ”yaxın görünə biləcək” mövqeyi siyasi xarakter daşıyır. İrəvana masadan çıxarılan Qarabağ məsələsində ”mübarizə apardığını” əsaslandıracaq və daxili auditoriyanın ağzına atacaq ”yem” lazımdır. Bakıya Qarabağ məsələsinin daxili işi olduğu faktının bütün beynəlxalq oyunçular tərəfindən qəbul edilməsi, sülh müqaviləsində bu məsələnin ümumiyyətlə gündəmə gəlməməsi lazımdır. İkincisi, söhbət ”qeyri-formal” əlaqələrdən gedir, yəni müzakirə mövzusu siyasi yox, ictimai-humanitar məsələlərdir və bunu siyasətçilər yox, ölkənin daxili sabitliyini təmin edən güc strukturları - Daxili İşlər Nazirliyi, yaxud Dövlət Təhlükəsizlik Xidməti apara bilər. Prezidentin açıqlaması da təsdiq edir ki, indiyə qədər ”qeyri-formal əlaqələr” müəyyən qədər qurulub. Bunun fonunda erməni mənbələrin təmasların Azərbaycanın güc strukturları tərəfindən həyata keçirildiyinə dair məlumatları yada düşür. Bunun əksi - təmasların siyasi səviyyədə qurulması müzakirə mövzusu ola bilməz”.

*Ekspertə görə, Xankəndidə bayrağımızın dalğlanmasının yolu hərbi əməliyyatla bölgəni təmizləməkdir:* ”Rusiya sülhməramlılarının bölgədə olması bu imkanı azaldır. Bunun baş verməsi Azərbaycana qarşı ”soyqırım” ittihamlarını və bu ittihamların rəsmiləşməsi risklərini aktuallaşdırır. Antiterror əməliyyatı ilə separatçıları və qalıqları təmizlənsə belə, erməni əhalini vətəndaşlığı qəbul etməyə sövq etmək güc yolu ilə çətin görünür. Belə bir addım Ermənistanın ”Qarabağ münaqişəsi”nin başlanması səbəbi kimi göstərdikləri ”etnik münaqişə” senarisinin yenidən təkrarlanmasına gətirib çıxara bilər. Nəhayət, istədiyimiz ”birgəyaşayış planı” baş tutmaya, bölgədə maraqlı tərəflərin əlinə ”əsas” verə bilər. Bu həm də rus qüvvələrin bölgədə daha uzunmüddətli qalması perspektivini gücləndirər. Erməni əhali ilə təmaslar qurmaq, birgəyayışın bünövrəsini formalaşdırmaq lazımdır. Azərbaycanın hədəfi budur və Qarabağda erməni əhalisinin ən azı müəyyən hissəsinin vətəndaşlığımızı qəbul etməsi, yaxud buna isti münasibəti vəziyyəti dəyişdirə bilər. Bu, Azərbaycana imkan verə bilər ki, zərurət yaranarsa, öz vətəndaşlarının müdafiəsi məqsədilə separatçı-terrorçulara qarşı əməliyyatlar da həyata keçirsin. Çətin və ağrılı prosesdir, lakin öncə erməni əhalisi ilə separatçı-terrorçuları bir-birindən ayırmağa nail olmalıyıq”.

**İsmayıl Qocayev**



# Rusiya-Ukrayna müharibəsi dayandırılmalıdır

## Çünki tərəflər savaşın ən dəhşətli mərhələsindədir

**İsmayıl Qocayev**

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Rusiya Prezidenti Vladimir Putinin Qazaxıstanın paytaxtı Astanada görüşü gözlənilir.**

Görüş oktyabrın 12-də keçiriləcək Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində baş tuta bilər. Xatırladaq ki, daha öncə Kremlin mətbuat katibi Dmitri Peskov da iki ölkə prezidentinin 12-13 oktyabr tarixlərində görüşəcəyini istisna etməyib. Peskov həmçinin, onu da qeyd edib ki, Vladimir Putinin Astanaya səfəri planlaşdırılıb. Kreml rəsmisi həmçinin onu da əlavə edib ki, rəsmi Moskva Türkiyə ərazisində Fransa, Böyük Britaniya, Almaniya və ABŞ-la mümkün ola biləcək danışıqlar barədə konkret təkliflər almayıb, amma bu məsələ Astanada Ərdoğanla görüş zamanı müzakirə oluna bilər. Vurğulanıb ki, planlaşdırılan danışıqlarda qida sazişi, Ukraynadakı vəziyyət və enerji əməkdaşlığı müzakirə ediləcək. Rusiya Xarici işlər naziri Sergey Lavrov da Vladimir Putin və Rəcəb Tayyib Ərdoğanın Astanada görüşəcəklərini təsdiqləyib.

> “Nüvə taktiki başlıqlı silahların tətbiq olunması söz-söhbəti gedir”

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli ”Şərq”ə bildirib ki, Lavrovun da qeyd etdiyi kimi əsas danışıq tərəfləri Rusiya və ABŞ-dır. Ekspert bəyan edib ki, indiki halda Kremlin Kiyevlə müzakirə edəcəyi məsələ yoxdur:** ”Rusiya buna görə Zelenskini günahlandırır və bildirirlər ki, Ukrayna prezidenti Kreml rəhbəri ilə görüş söhbətini, Rusiya ilə müzakirələri qapadıb. Hazırkı məqamda daha çox dil tapmağa ehtiyac var. Çünki tərəflər savaşın ən dəhşətli mərhələsindədir. Nüvə taktiki başlıqlı silahların tətbiq olunması söz-söhbəti gedir. Bu, həqiqətən fəlakətli senaridir və mümkün qədər qaçmaq lazımdır. Bu təhlükə ”Damokl qılıncı” kimi dünyanın başı üzərində qalmaqdadır. Ona görə də çalışırlar ki, bu cür gedişatın önünü kəssinlər. Sözün açığı, indidən hansısa konkret nəticədən danışmaq tezdir”.

# Payız-qış mövsümü təhlükəlidir

## Pandemiyanın bitdiyini söyləmək hələ tezdir



Mərdan Əliyev: “İmmunitetin qorunmasına, yüksəlməsinə çalışmalıyıq, qoruyucu tədbirlərə də laqeyd yanaşmamalıyıq”

**Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus hesab edir ki, bir neçə həftədir dünyada yoluxma və ölüm hallarının azalmasına baxmayaraq, ölkələr koronavirusa qarşı peyvəndləri davam etdirməlidir. O, bunu təşkilatın Şərqi Aralıq dənizi ölkələri üzrə Komitəsinin 69-cu sessiyasında deyib:**

”Biz bütün ölkələrdə COVID-19 peyvəndi ilə 70 faiz əhatə olunması hədəfinə doğru irəliləyərkən ÜST-yə üzv ölkələri prioritet məsələ olaraq bütün səhiyyə işçilərini və yaşlı insanları peyvənd etməyə çağırmağa davam edirik”. ”Biz heç vaxt qlobal fövqəladə vəziyyət kimi COVID-19 pandemiyasına son qoyacağımız qədər yaxşı vəziyyətdə olmamışıq”, - təşkilat rəhbəri əlavə edib: ”İki il yarımdan sonra biz tunelin sonunda işıqları görməyə başlayırıq”. ”Lakin hələ sona çatmamışıq, hələ də tuneldəyik və ehtiyatlı davranmasaq, bizi çətinləşdirə biləcək çoxlu maneələr var”, - baş direktor fikirlərini yekunlaşdırıb.

**Həkim-infeksionist Mərdan Əliyev ”Şərq”ə açıqlamasında koronavirusa günlük yoluxma sayında müşahidə edilən stabilləşmə, ölüm hallarınınsa, demək olar, sıfırlanması müsbət dinamikadan xəbər verir, lakin bu, pandemiyanın artıq bitdiyi anlamına gəlməməlidir:**

- Payız-qış mövsümü təhlükəlidir və hər kəs özünü qorumalıdır. Özüylə soyuq hava gətirən mövsüm dəyişikliyi yuxarı tənəffüs yolları xəstəliklərinin, respirator virusların çoxalmasına səbəb olur. Boğaz ağrısı, öskürək, asqırma, ümumi zəiflik, baş ağrısı, halsızlıq kimi bizə tanış olan əlamətlər, hələ koronavirusa yoluxma demək deyil, lakin istənilən halda insanlar ehtiyatı əldən verməməli, COVİD testindən keçməlidirlər. Hazırda yoluxma sayında azalmalar var və bu, bir neçə səbəblə bağlıdır. Bir səbəb koronavirusun hazırda dominant olan Omicron variantıdır. Bilirik ki, Omicron variantının əsas xüsusiyyəti sürətli yoluxma, amma daha az fəsadlar, daha az ağırlaşma halları və daha az ölüm faktıdır. Bu variant əvvəlki variantlara nisbətən ağır gedişli ağciyər iltihabına səbəb olmur. Əsas səbəblərdən biri əhalidə kütləvi immunitetin yaranmasıdır. Bu da əhalinin böyük faizinin COVİD-ə yoluxub sağalması, həmçinin böyük göstəricidə peyvəndləmə ilə bağlıdır. Yəni biz koronavirusa qarşı qoruyucu qalxana artıq malikik. Sadəcə, özümüzü qorumalıyıq, yoluxma varsa, onun ağırlaşmaması, xəstəliyin ağır fazaya keçməməsi üçün vaxtında müalicə olunmalıyıq. Koronavirus pandemiyasının başlanğıcında dərman preparatları da az idi. İndi isə vəziyyət fərqlidir. Dərman preparatları da var, həkimlər də pasiyentlərə hansı müalicəni təyin edəcəklərini bilir. Bunlar hamısı malik olduğumuz üstünlüklərdir. Lakin dediyim kimi, pandemiyanın bitdiyini söyləmək hələ tezdir. İmmunitetin qorunmasına, yüksəlməsinə çalışmalıyıq, qoruyucu tədbirlərə də laqeyd yanaşmamalıyıq. Kütləvi yerlərdə, ictimai nəqliyyatda tibbi maskalardan istifadə etmək məsləhətdir. Peyvəndlərin vurdurulması davam etməlidir. Gücləndirici, qabaqlayıcı dozalar vurulsa yaxşıdır.

**Məlahət Rzayeva**



# Misir Qasımlı Ukraynada erməni əsilli ispan tərəfindən şərlənib

## Deputat Məlahət İbrahimqızı həbsdə olan Vətən müharibəsi iştirakçısının azadlığı üçün parlamentdən kömək istəyib

**Dünən Milli Məclisin payız sessiyası çərçivəsində növbəti plenar iclas keçirilib. İclasın gündəliyinə 30 məsələ daxil edilib. Əvvəlcə deputatlar cari məsələlərlə bağlı çıxışlar edərək bəzi problemləri gündəmə gətiriblər. İclasda hazırda Ukraynada həbsdə olan Vətən müharibəsi iştirakçısı Misir Qasımlıya dair məsələ qaldırılıb.**

Deputat Məlahət İbrahimqızı Azərbaycan-Ukrayna Parlamentlərarası dostluq qrupunun bu məsələyə diqqət yetirməsini istəyib. Deputat qeyd edib ki, Misir Qasımlı Azərbaycan Prezidenti tərəfindən bir neçə dəfə medalla təltif olunub: ”Misir Qasımlı Ukraynada erməni əsilli ispan tərəfindən şərlənib və bu iş üzrə heç bir sübut təqdim olunmayıb. Çox təəssüflər olsun ki, Ukraynadakı səfir bu hadisələrə bir az laqeyd yanaşır. Bir neçə dəfə Azərbaycan diasporundan mediaya məlumat verilib ki, bu məsələ diqqətdədir. Amma bir il yarımdan çoxdur ki, heç bir sübut ortaya qoyulmur, hər dəfə məhkəmə təxirə salınır. Onun vəkili də dəfələrlə bu iş üzrə heç bir sübut olmadığını bildirir. Mən bir daha müraciət edirəm ki, Azərbaycan-Ukrayna Parlamentlərarası əlaqələr üzrə işçi qrupu Ukrayna Ali Radasına müraciət etsin və bu məsələnin tezliklə bitməsini tələb etsin”.

**“Əvvəllər məhkumluğu olan şəxsləri vəzifəyə qoymamaq qanunlarımıza ziddir”**

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev deyib ki, Cinayət Məcəlləsinə təklif edilən yeni dəyişikliklə hüquqi şəxslərə münasibətdə üzərlərindən məhkumluğun götürülməsi çox aydın şəkildə görünür. Deputat bildirib ki, fiziki şəxslərə münasibətdə də belə müddəa var: ”Ombudsmanla bağlı qanuna da dəyişiklik edəcəyik. Burada da bununla bağlı müddəa var. Bildirilib ki, əvvəllər məhkumluğu olmuş şəxs namizəd ola bilməz. Yəni dövlət vətəndaşa müəyyən müddətdən sonra məhkum olunmamış sayılması üçün hüquq verir, amma qanunlarda bunu nəzərə almırıq. ”Media haqqında” qanuna da bu müddəanı salmışıq. Əvvəllər məhkumluğu olan şəxsləri heç bir vəzifəyə getməyə qoymamaqla bağlı bu müddəalar bizim qanunlarımıza ziddir”.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib ki, son vaxtlar Avropada yaşayan bəzi siyasətçilər ermənipərəst mövqe sərgiləyirlər. Deputat bildirib ki, bu gün terrorçu Ermənistanın Gəncəyə raket atmasından 2 il keçir: ”Erməni terrorçular tərəfindən Vətən müharibəsi dövründə Gəncə şəhərinə 4 dəfə raket atılıb. Avropadakı o siyasətbazlar bunları eşitsinlər, görsünlər, dilə gətirsinlər. Ondan sonra onların erməni terrorçularının yanında durub-durmadığını bütün dünya görsün. Biz Ermənistan terrorunu pisləyirik. Biz bu terrorun bütün dünyaya qarşı olduğunu bilirik. Xocalı soyqırımı, Edilli faciəsi, Vətən müharibəsi dövründə Bərdənin, Gəncənin, Tərtərin raket hücumuna məruz qalması terror deyil, bəs nədir?”.

Deputat Sahib Alıyev də Ermənistanın Gəncəni ikinci dəfə bombalanmasından 2 il keçsə də, Avropanın hələ buna qiymət vermədiyini vurğulayıb: ”Bizə qarşı edilən vəhşilikləri görməzdən gəlmələri ilk dəfə deyil. Ancaq hələ reallığı sübut edilməmiş bir videoya görə Azərbaycana təzyiq göstərməyə çalışır, guya, heyrətə gəldiklərini bildirirlər”.

**“Qanun layihəsində startap ayrıca istiqamət kimi qeyd olunmayıb”**

Millət vəkili Vüqar Bayramov startapla bağlı təkliflə çıxış edib. Vurğulayıb ki, qanun layihəsində startap ayrıca istiqamət kimi qeyd olunmayıb: ”Hazırda startap dünya miqyasında 3 trilyon ABŞ dolları, G7 ölkələrində isə 600 milyard ABŞ dolları əlavə dəyər yaradır. Bu səbəbdən startaplarla bağlı əlavə qanun layihəsinə ehtiyac var. Startaplar kiçik və orta sahibkarlığın (KOB) fəaliyyətində mühüm rol oynayır. Bundan başqa, qanun layihəsi innovativ olmalıdır və təkcə ənənəvi üsullarla hazırlanmamalıdır. Ancaq bu layihədə innovasiya xüsusi ünvanlanmayıb. Qanun layihəsində KOB-un maliyyə təminatı sistemləşdirilməyib. Halbuki, KOB-lar üçün əsas problemlərdən biri məhz maliyyə resurslarına çıxış imkanının artırılmasıdır. Digər tərəfdən, qanunun əhəmiyyətinin əsaslandırılmasına və qanunun daha çox dəstək tədbirlərini əhatə etməsi vacibdir”.

**“Tenderlər formal xarakter daşıyır”**

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev deyib ki, Azərbaycanda təxminən 150 minə qədər kiçik və orta sahibkar var. Bunlara kömək etmək, məsləhət vermək bir dövlət orqanının görəcəyi iş deyil. Deputat bildirib ki, bizim qanunlar deklarativ xarakter daşımamalı, yəni nəzəri olmamalıdır: ”Qanunların işləməsi üçün mexanizmlər işlənib hazırlanmalıdır. Biz mətbuatdan korrupsiya ilə bağlı xəbərlər oxuyuruq. Korrupsiyanın azalması üçün mexanizmlər işlənməlidir. İkincisi, hamımız Azərbaycan reallığında yaşayırıq. Tenderlər Azərbaycanda formal xarakter daşıyır və tenderin qalibi əvvəldən məlumdur. Tenderlərin keçirilməsi üçün daha şəffaf mühit yaradılmalıdır. Biz sahibkarlara bununla dəstək ola bilərik. Bunu bir misal kimi çəkdim. Yəni mexanizmlər işlənib hazırlanmasa, KOBİA necə ucuz çıxışı sahibkarlar üçün təşkil edəcək? Azərbaycanda ictimai münasibətlər sistemi qərb reallıqlarına cavab vermir, amma bizim qanunları qərb reallıqlarına uyğunlaşdırırlar. Ona görə də deyirlər ki, icra olunan pis qanun daha yaxşıdır, nəinki icra olunmayan yaxşı qanun. Ölkədə hüquq mədəniyyəti ilə bağlı əks-effekt olur. Ona görə də bundan sonra biz qanun qəbul edəndə mövcud reallıqları nəzərə almalıyıq”.

Sədr Sahibə Qafarova isə həmkarının tenderlərlə bağlı mövqeyini dəstəkləmədiyini bildirib: ”Tenderlərlə bağlı qanun-qayda var və tenderlər bu qanun-qayda ilə həyata keçirilir”.

**İsmayıl Qocayev**



# Sülh müqaviləsinin imzalanması ehtimalı böyükdür

“Avropa İttifaqı bölgədə sülhün təsisi üçün maliyyə imkanlarını da dövriyyəyə buraxmağa hazırdır”

**Kollektiv Qərb Ermənistanın Baş naziri Nikol Paşinyandan bu ilin sonuna qədər sülh müqaviləsini imzalamağı tələb edir. Bu barədə Ermənistanın ”Qraparak” qəzeti yazıb. Nəşr bildirib ki, məsələ oktyabrın 6-da Praqada bağlı qapılar arxasında müzakirə olunub. Mənbənin sözlərinə görə, Azərbaycan tərəfi müqavilənin 9 noyabrda imzalanmasını təklif edib.**

Deyilənə görə, Paşinyan buna etiraz edərək həmin tarixin erməni xalqının yaddaşında pis simvolizə olunduğunu deyib. Ermənistan ictimaiyyəti hesab edir ki, sülh müqaviləsi növbəti kapitulyasiya aktı olacaq. Paşinyan həmçinin Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın ”suveren ərazisindən” çıxarılması məsələsini qaldırıb. O, bəyan edib ki, bu şərt yerinə yetirilməzsə, müqaviləyə imza atmayacaq. Azərbaycan isə Mehri ərazisindən keçən dəhliz barədə tələb irəli sürüb: ”Ermənistan hökuməti də yeni hərbi toqquşmaların olması riskini istisna etmir”.

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu isə deyib ki, Azərbaycanla Ermənistan sülh sazişinin əsas prinsiplərini razılaşdırıb. Onun sözlərinə görə, Türkiyə münasibətlərin normallaşdırılması mövzusunda da səmimidir. Nazir indiki vəziyyətdə Cənubi Qafqazda stabilliyin son dərəcə vacib olduğunu qeyd edib: ”Amma təbii ki, Ermənistanın yaşadığı travmalar var. Biz 30 il ərzində işğal etdiyi torpaqları özününkü hesab edən ölkə və millətdən danışırıq. Bu savaş artıq bitdi, bundan sonra Paşinyana Ermənistan xalqının dəstək verməsi onların sülh istəməsi deməkdir, amma sülhü istəməyənlərin səsi daha çox çıxır. Ermənistan anlamalıdır ki, burada davamlı sülh üçün addımlar atmaq lazımdır”. XİN rəhbəri əlavə edib ki, son danışıqlar əvvəlkilərdən daha uğurlu keçib: ”Azərbaycan ilə Ermənistan qalıcı sülh sazişi imzalamalıdır. 5 əsas prinsip ətrafında anlaşma var, bunu həyata keçirmək lazımdır”.

**Politoloq Turab Rzayev ”Şərq”ə deyib ki, proseslər sülhə doğru gedir. Onun sözlərinə görə, yaxın gələcəkdə müqavilənin imzalanma ehtimalı böyükdür:** ”Avropa İttifaqı Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin imzalanmasında çox maraqlıdır. Nəzərə alaq ki, bugünədək tərəflər arasında çoxsaylı görüşlər keçirilib və sadəcə Aİ-nin moderatorluğu ilə baş tutan təmaslarda nəticələr əldə olunub. Brüssel görüşlərində ilk dəfə Zəngəzur dəhlizi üzərində dəmir yol xəttinin, avtomobil yolunun çəkilməsi ilə bağlı müəyyən razılıq əldə edilib. Sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı komissiyalarının yaradılması razılaşdırılıb. Bunların hamısı Brüsselin vasitəçiliyi ilə əldə olunub. Eyni zamanda Avropa İttifaqı bölgədə sülhün təsisi üçün maliyyə imkanlarını da dövriyyəyə buraxmağa hazırdır. Ermənistana 2.6 milyard, Azərbaycana isə 2.2 milyard avro vəsait ayrılıb. Bu da Cənubi Qafqazın inkişafına Aİ-nin verdiyi dəyəri göstərir. Avropa İttifaqı regionda sülhün bərqərar olmasında, iqtisadi-siyasi inteqrasiya formalaşmasında çox maraqlıdır”.

**T.Rzayev vurğulayıb ki, Praqa görüşündə Türkiyənin də yaxından iştirakı çox mühüm amildir:** ”Müharibə dövründə yaradılmış Azərbaycan-Türkiyə və Rusiya-Ermənistan masasına alternativ Azərbaycan-Türkiyə və Fransa-Ermənistan masası formalaşmaqdadır. Fransanın son günlər xüsusi aktivliyi, bölgəyə missiya göndərməsi də bunu sübut edir. Bundan əvvəl keçirilən Brüssel görüşündə Azərbaycan rəhbərliyi üç komissiyasının yaradılmasına qərar vermişdi. Deməli, bizdə böyük bir əminlik var ki, ilin sonuna kimi sülh müqaviləsi yekunlaşdırılmalıdır. Ən azından ilkin formada, qaralama şəklində də olsa sənədi meydana çıxarmaq lazımdır. Çünki vaxt bölgənin və tərəflərin əleyhinə işləyir. Getdikcə sülh prosesini əldə etmək daha da çətinləşəcək”.

**İsmayıl Qocayev**

# ABŞ-ın səyləri təqdir olunmalıdır

“İndi sülhün bərqərar olması üçün istənilən ölkə tərəfindən verilən dəstək önəmlidir”

**Oktyabrın 10-da ABŞ dövlət katibi Entoni Blinken Prezident İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı E.Blinken son dövrlərdə keçirilmiş görüşləri davamlı sülh müqaviləsinə doğru müsbət addımlar kimi səciyyələndirib.**



Ölkə başçımız və ABŞ dövlət katibi Cenevrədə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında və Praqada liderlər səviyyəsində keçirilmiş görüşlərin əhəmiyyətini vurğulayıblar. E.Blinken ABŞ-ın sərhədlərin delimitasiyası, nəqliyyat xətlərinin açılması və itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi, həmçinin digər humanitar məsələlərin həllində dəstək göstərməyə hazır olduğunu bildirib. Dövlətimizin başçısı, həmçinin Praqada keçirilmiş görüş nəticəsində qəbul edilmiş bəyanatın sülh prosesinə töhfə verəcəyinə ümidvar olduğunu ifadə edib.

**Türkiyədə yaşayan tanınmış azərbaycanlı alim, Ankara Universitetinin professoru Toğrul İsmayıl məlum telefon danışığını ”Şərq”ə şərh edərkən bildirib ki, hazırda Azərbaycan və Ermənistan arasında qalıcı sülhün imzalanması çox vacib məsələdir:** ”Xüsusilə də delimitasiya məsələsi, nəqliyyat yolunun açılması, İkinci Qarabağ savaşında itkin düşmüş şəxslərin taleyinin müəyyənləşməsi Azərbaycan üçün önəmlidir. Burda humanitar məsələləri də vurğulamaq lazımdır. Amerikanın belə məsələlərdə dəstək vermək istəyi olduqca təqdirəlayiqdir. Əlbəttə ki, bu, müsbət qarşılanmalıdır. Məncə, indi sülhün bərqərar olması üçün istənilən ölkə tərəfindən verilən dəstək önəmlidir. Amma biz görürük ki, əksər vaxt bu dəstəklər sadəcə kağız üzərində və ya sözdə qalır”.

*Professorun sözlərinə görə, yekun sülhün imzalanması üçün Azərbaycandan ziyadə Ermənistan siyasi iradə göstərməlidir*: ”Çünki rəsmi Bakı onsuz da öz ərazi bütövlüyünü təmin etmiş, qələbə qazanmış bir tərəf olaraq buna hazırdır. Ermənistanın bunu qəbul etməsi normal ikili münasibətlərin qurulması üçün mühümdür. Lakin biz son zamanlar rəsmi İrəvanın prosesi daha da uzatmaq istədiyini, sülhün mahiyyətini dəyişdirmək istədiyini görürük. ABŞ da bunu görür və özü məsələnin sülhlə yekunlaşması üçün vasitəçi olmaq istəyir”.

**Günəş Mərd**



# "Artıq dünya telefonun ekranındadır"

## Dünyanın nüfuzlu META şirkətində çalışan azərbaycanlı Cəfər Cəfərov texnologiyaya maraq salmış yeniyetmələrə tövsiyələr verdi

“Əgər inkişaf etmək, yaxşı yerlərə gəlmək istəyirsizsə, çalışmalısınız ki, ətrafınızda həmişə sizdən ağıllı, elmli, bacarıqlı insanlar olsun. Mən o mənada şanslıyam ki, kolleqalarım çox zəki, çalışqan şəxslər olublar”





**Gənclərimizin uğur sədaları dünyanın müxtəlif yerlərindən eşidilir. Modern gənclik qlobal miqyasda daha çox informasiya texnologiyaları ilə maraqlanır, texnoloji trendləri yaxından izləyirlər. Dünyanın nəhəng texnologiya şirkətlərində çalışmaq çoxları üçün əlçatmaz görünsə də, öz zəkası, bacarığı ilə önə çıxan və hazırda belə şirkətlərdə çalışan xeyli həmyerlimiz var. Əzmi və bacarığı sayəsində arzusuna çatan istedadlı gənclərimizdən biri də META şirkətində (Facebook) tədqiqatçı-alim kimi çalışan Cəfər Cəfərovdur.**

O, Sumqayıtda hərbiçi ailəsində dünyaya gəlib. Təhsilinə Sumqayıt 23 saylı orta məktəbdə başlayıb, birinciliklə qəbul olduğu Sumqayıt Özəl Türk liseyində davam edib. 9-cu sinifdən başlayaraq respublika və beynəlxalq olimpiadalarda iştirak edib, medallar qazanıb. Türkiyənin Boğaziçi Universitetinə kompüter mühəndisliyi ixtisasına qəbul olub. Daha sonra doktorantura təhsili üçün Amerikanın ən öndə gedən universitetlərindən olan Çikaqo Universitetinə qəbul olub.

**- Cəfər bəy, texnologiya, kompüter sahəsinə maraq necə yaranıb? Bu sahəyə sizi kim yönləndirib?**

- Uşaqlıqdan riyaziyyat fənninə ciddi marağım olub. Mütəmadi riyazi-məntiqi məsələlərin həlli, müxtəlif pazlların yığılması ilə məşğul olmuşam. Həndəsəni çox sevirdim. Yadımdadır ki, evdə yuxarı siniflərin həndəsə kitablarını oxuyub anlamağa çalışırdım. Təbii ki, elmə istiqamətlənməkdə valideynlərimin də mühüm rolu, yönləndirməsi var idi. Xüsusilə atam təhsilimə və əsasən riyaziyyat biliglərimin artmasına önəm verirdi. Orta məktəbdə təhsil aldığım dövrdə riyaziyyat olimpiadalarına qatılmağa başladım. Respublika və beynəlxalq miqyaslı olimpiadalarda iştirak edərək medallar, mükafatlar, fəxri fərmanlar aldım. Kompüter mühəndisliyinə olan marağımın, bu sahəni seçməyimin digər bir səbəbi elə kompüterə olan həvəsim idi. Ələlxüsus, kompüter oyunlarına ciddi marağım olub. 11-ci sinifdə oxuyarkən, yəni abituriyent olarkən kompüter mühəndisliyi populyar sahələrdən biri kimi marağımı cəlb etdi. Kompüter mühəndisliyinə xüsusi diqqət yetirməyə və araşdırmalara başladım. Yaşca məndən böyük dostlarımın da yönləndirməsi sayəsində bu sahəyə getməyi qərarlaşdırdım.

**- Nüfuzlu universitetlərdə təhsil almağınız, xarici ölkələrin mühiti bilik və bacarığınıza, fərdi inkişafınıza necə təsir göstərib?**

- İlk ali təhsilimi Türkiyənin Boğaziçi Universitetində kompüter mühəndisliyi fakültəsində almışam. Bakalavr və magistr pilləsini həmin ali məktəbdə başa vurmuşam. Kompütür elmi üçün doktorantura təhsili almaq məqsədi ilə ABŞ-ın Çikaqo Universitetinə qəbul olmuşam. Boğaziçi təkcə Türkiyənin deyil, Avropanın ən öndə gələn universitetlərindən biridir. Çikaqo Universiteti isə dünyanın ən qabaqcıl ali təhsil ocaqlarındandır. İlk növbədə onu deyim ki, xarici ölkələrdə yaşamağın özü fərdi inkişafa əhəmiyyətli surətdə təsir göstərir. Bu amil insana müstəqil yaşamağı, məsələləri çözməyi, başqasından asılı olmamağı və s. keyfiyyətləri aşılayır. Məndə də belə oldu. Nüfuzlu universitetlərdə oxumaq bilik və bacarığıma, təcrübəmə ciddi təsir göstərdi. Dünyaca məşhur alimlərin, professorların tədrisindən keçmək, onların elmindən, təcrübəsindən faydalanmaq həqiqətən də çox qiymətli nüanslardır. Sizə dünya miqyasında olduqca aktual mövzuları dərinliyinə qədər öyrənmək şansı verilir. Bu şansı dəyərləndirmək isə insanın özündən asılıdır. Tədris heyətinin və dərsliklərin yüksək səviyyədə olması ilə yanaşı, kolleqalarınızın sizə münasibəti də çox önəmlidir. Çikaqo Universitetindəki kolleqalarımdan çox şey öyrənmişəm. Bir məsəldə deyilir ki, ”Siz ən çox zaman keçirdiyiniz 5 insanın ortalamasısınız”. Əgər inkişaf etmək, yaxşı yerlərə gəlmək istəyirsizsə, çalışmalısınız ki, ətrafınızda həmişə sizdən ağıllı, elmli, bacarıqlı insanlar olsun. Mən o mənada şanslıyam ki, kolleqalarım çox zəki, çalışqan şəxslər olublar. Həmişə onlardan ilham almışam, mənim üçün motivasiya qaynağı olublar. Yaxşı mənada rəqabət içərisində olmuşuq. Bu, həm bilik və bacarıqların inkişafına təkan verir, həm də iş disiplini yaradır. Səbrli olmağı öyrədir. Nəzərə alaq ki, məşğul olduğumuz məsələlər asan deyil və qısa zamanda həllini tapmaq mümkünsüzdür. Mən bu keyfiyyətləri doktorantura təhsili alarkən əldə etmişəm.

**- Dünyaca məşhur META ilə yolunuz necə kəsişdi, nəhəng şirkətə yol haradan başladı?**

- Doktorantura təhsilimin son ilində hansı sahədə fəaliyyət göstərəcəyimlə bağlı düşünməyə və iş axtarmağa başladım. Texnologiya sahəsində tədqiqatçı-alim kimi çalışmaq qərarına gəldim. Bu təkcə mənim yox, bir çox insanın arzusu idi. Çünki dünyanın ən qabaqcıl texnologiyası, yeni ixtiralar, metodikalar məhz bu cür şirkətlərdə tətbiq edilir. Ona görə də META hər zaman diqqətimdə olub. Təbii ki, orada işə başlamağımda META şirkətində çalışan həmyerlilərimin rolu danılmazdır. Onlar mənim marağımı artırıblar. Qeyd etmək lazımdır ki, META kimi şirkətlərə işə qəbul prosesi asan deyil. Aylarla çəkən hazırlıq lazımdır, intervyu prosesinin özü 5-6, bəzən 7 mərhələli olur. Onlar sizin sürətli məsələ həll etmək, kod yazmaq qabiliyyətinizi və başqa texniki keyfiyyətlərinizi test edirlər. Buna hazırlaşmaq çox ciddi vaxt və disiplin tələb edir. Təbii ki, həm doktorantura təhsili sırasındakı elmi araşdırmalarımı davam etdirmək, həm də bu proses olduqca mürəkkəb idi. Aylar çəkən prosesin sonunda bir çox yerlərdən təkliflər gəldi. Ancaq mənim üçün ən optimal variant META idi. Süni zəkanın bir qolu sayılan ”maşın öyrənməsi” sahəsində tədqiqatçı-alim olaraq işə başladım. Burada iki məsələ xüsusi marağımı çəkir. Marağımı cəlb edən instaqramda, feysbukda sizin qarşınıza çıxan kontentlərin dəqiqliyi, keyfiyyəti, istifadəçi tərəfindən nə qədər mənimsənildiyidir. Digər məsələ isə reklam sahəsidir. Bilirsiniz ki, feysbukun gəlirlərinin önəmli hissəsi reklamlardandır. Reklamları istifadəçi ilə düzgün şəkildə əlaqələndirmək vacibdir. Hər iki məsələ süni zəkanın ”maşın öyrənməsi” sahəsinin ən qabaqcıl nəzəriyyəsi və praktikasına əsaslanır.

“Gələcəkdə nəhəng şirkətlərdə çalışmaq və yüksək səviyyəli kadr olmaq istəyirsizsə, ingilis dilini bilmək məcburiyyətindəsiniz. İkincisi, bu sahəyə dair resurslar, qaynaqlar böyük ölçüdə ingilis dilindədir. Ona görə də təhsil müddətində dil bilgisinə ciddi yanaşsınlar”

**- Süni zəka gələcəyimiz üçün nələr vəd edir? Sizcə, süni intellektin insan əməyini sıradan çıxarması bəşəriyyət üçün fəlakətdir, yoxsa əksinə, insanlığın rahatlığına xidmət edir?**

- Süni zəka bizim üçün gözəl gələcək vəd edir. Bugünə qədər əldə etdiyimiz elmi nailiyyətlər də bunu göstərir. Ağlınıza gələn hər sahədə süni zəkanın, ”maşın öyrənməsi”nin tətbiqini görə bilərsiniz. Məsələn, səhiyyədə, bank və maliyyə sistemlərində, sənayedə, aviasiyada, işə qəbul proseslərində və bir çox sahədə istifadə olunur. Nəhəng şirkətlər - ”Amazon”, ”Apple”, ”Google”, META və s. Qurumların bütün məhsullarında süni zəka alqoritmləri bu və ya digər formada istifadə olunur. Artıq bu, qaçılmaz reallıqdır və keyfiyyətin, surətin əsas göstəricilərindən biridir. ”TESLA”nın özünü idarə edən maşınları var. Sürücü sükan arxasında əyləşsə də, heç nəyə toxunmur və maşın öz-özünü idarə edir. Kosmik tədqiqatlarda süni zəka daha çox istifadə olunur. NASA-nın mars və başqa planetlərdə apardığı araşdırmalarda ciddi tətbiq edilir. Yəni bir növ insanın edə bilməyəcəyi, gedə bilməyəcəyi yerlərdə məhz sünu zəka alqoritmlərindən istifadə olunur. Sosial media dediyimiz reallığın təməlində süni zəka alqoritmləri dayanır. O baxımdan süni zəka ”insan əməyini tamamilə sıradan çıxarır” fikri ilə razılaşa bilmirəm. Tarix boyunca hər inkişaf nələrisə sıradan çıxarsa da, yeni şeylər yaradır. Sıradan çıxarmaq məsələsi də bir növ formanın dəyişməsi kimi bir qanunauyğunluqdur. Məsələn, fotoqrafiyanın icadından əvvəl rəssamlıq peşəsi var. İnsanlar hansısa anı ölümsüzləşdirmək üçün xüsusi studiyalara, qalereyaya gedirdilər və rəssamlar onların rəsmini çəkirdi.
Fotoaparatların kəşfindən sonra rəssamlara bu iş üçün ehtiyac qalmadı və fotoqraflar ortaya çıxdı. Amma bununla rəssamlıq bitmədi və fərqli istiqamətlərə yönəldi. Süni zəkadan sonra bəzi peşələr tarixə qovuşsa da, yeni peşələr, sahələr ortaya çıxdı. Süni zəka danılmaz və qaçılmaz reallıqdır. Artıq dünya telefonun ekranındadır.

**- Dünyanın aparıcı texnologiya şirkətlərində çalışan başqa həmyerlilərimiz varmı, onlarla əlaqə saxlayırsızmı?**

- Əvvəlcə onu deyim ki, dünyanın nüfuzlu texnologiya şirkətlərində və müxtəlif sahələrdə gözlədiyimdən daha çox azərbaycanlı çalışır. Bu, təbii ki, çox sevindirici haldır. Həmyerlilərimizin sayı nə qədər çox olsa, bizim üçün faydalı və qürurvericidir. Həm də gənclərimizə müsbət nümunədir. Məncə, bu məqamın Azərbaycanda elm və texnologiyanın inkişafına da ciddi təsiri var. ABŞ-da yaşadığım müddətcə bir çox azərbaycanlı ilə tanış olmuşam. Hətta yaxın dostlarım arasında burada tanıdığım insanlar var. Onların bilik və bacarığından, təcrübəsindən faydalanıram.

**- Yeni nəslin nümayəndələrinə, xüsusən texnologiyaya maraq salmış yeniyetmələrə tövsiyələriniz nədir? Kompüter dövrünün gəncləri elmi-texnoloji biliklərini inkişaf etdirmək üçün nə etməlidirlər?**

- Əsas məsələ xarici dil bilmək, ingilis dilini öyrənməkdir. Bunun iki önəmli səbəbi var. Birincisi odur ki, bu sahənin dili ingilis dilidir. Siz gələcəkdə nəhəng şirkətlərdə çalışmaq və yüksək səviyyəli kadr olmaq istəyirsizsə, ingilis dilini bilmək məcburiyyətindəsiniz. İkincisi, bu sahəyə dair resurslar, qaynaqlar böyük ölçüdə ingilis dilindədir. Ona görə də təhsil müddətində dil bilgisinə ciddi yanaşsınlar. Kompüter mühəndisliyinə marağı olan gənclər proqramlanma dili öyrənməyə başlasınlar. Alqoritm kodlamağa çalışsınlar. Yəni nəsə etmək üçün universiteti gözləməsinlər. Hətta ali təhsil ocaqlarının, özəl kursların verdiyi biliklərlə kifayətlənməyərək özlərini yetişdirsinlər. Daim onlayn resurslara müraciət etsinlər və interneti yaxşı mənada istifadə etməyi bacarsınlar. Ən əsası isə öyrənmə arzusundan vaz keçməsinlər. Öyrənməyin başlıca və effektiv yolu isə sual verməkdir. Daha yaxşı biləndən soruşmaqdan çəkinməsinlər.

**İsmayıl Qocayev**

# Azərbaycanda İslam bankçılığını tətbiq etmək mümkün deyil

## Əvvələ, bu sahədə qanunvericilik bazası olmalıdır, ikincisi isə sahibkarlıq fəaliyyəti şəffaf olmalıdır




**Azərbaycanda İslam bankçılığının tətbiq olunması üçün dəfələrlə təşəbbüslər edilib. Hər dəfəsində fərqli çətinliklər ortaya çıxdığı üçün işin sistemli və köklü şəkildə reallaşması mümkün olmayıb. Xüsusən də 2015-ci ildə baş verən devalvasiyadan sonra İslam bankçılığı müzakirələri bir qədər səngimişdi.**

Amma millət vəkili Ceyhun Məmmədov məsələni yenidən gündəmə gətirib.

Milli Məclisin dünən keçirilən iclasında çıxış edən deputat Azərbaycanda dindar şəxslərin banklara bir o qədər də meyl göstərmədiklərini deyib. Bunun faiz məsələsinə görə olduğunu vurğulayan deputat bildirib ki, buna görə də bizim dindar insanlar öz pullarını bəzi islam ölkələrində olan islam qaydaları ilə fəaliyyət göstərən banklara yatırırlar: "Bu da bizim investisiyanın xaricə getməsinə səbəb olur. Bu gün Azərbaycanda dinə meyl artıb. Bu baxımdan da Azərbaycanda da dini qaydalarla işləyən investisiya şirkətlərinin olmasını vacib hesab edirəm".

Deputat vurğulayır ki, ölkəmizdə İslam bankçılığına ehtiyac var. İnsan hüquqları baxımından da hər bir vətəndaşa hansı bankla işləmək istəməsinə dair seçim imkanı verilməlidir. Əgər ənənəvi banklar varsa, İslam bankçılığı niyə olmasın?

Qeyd edək ki, ənənəvi kommersiya bankı müəyyən məbləği kredit kimi verdikdən sonra nə çox, nə az, məhz həmin məbləği və hesablanmış faizləri geri almağı nəzərdə tutur. Əsas məbləği, faizləri hər hansı səbəbdən geri ala bilmədikdə kommersiya bankı müştərinin əlindən əvvəlcədən nəzərdə tutulmuş girovu alır. Şəriət qaydaları ilə işləyən banklar isə biznes krediti verdikdə şərik kimi çıxış edir. Əgər müştəri islam bankının kreditindən istifadə edərək nəzərdə tutduğundan daha çoxlu gəlir əldə edirsə, banka da müvafiq olaraq daha çox pay ödəməli olur. Yox əgər daha az qazanırsa, banka da müvafiq olaraq az ödəməli olur. Müştəri üçün islam bankının biznes kreditlərindəki üstünlüyü ondan ibarətdir ki, biznesin uğurlu alınmasa və krediti qaytarmaq mümkün olmasa, islam bankı geriyə heç nə tələb etməyəcək.

İslam bankçılığının əsaslandığı şəriət qanunları yalnız real istehsala və real aktivlərə sərmayə qoymağa icazə verir, spekulyasiyalarla işləməyi qadağan edir. Son illər İslam bankçılığının bütün dünyada populyarlaşmasının əsas səbəblərindən biri də məhz budur.

Deptatın təklifini dəyərləndirən ekspertlər isə hesab edir ki, Azərbaycanda bu sistemin tətbiqi mümkün deyil. Əvvəla, İslam bankçılığının inkişafı üçün iki şərt lazımdır. Birincisi, bu sahədə qanunvericilik bazası olmalıdır. Lakin Azərbaycanda belə bir qanun qəbul olunmayıb. İkincisi isə sahibkarlıq fəaliyyəti şəffaf olmalıdır.

**Hüquqşünas, bank məsələləri üzrə ekspert Əkrəm Həsənov deyib ki, dini qaydalarla işləyən banklar səhmdar cəmiyyətlərin payını almaq və gəlir gətirən sahələrə investisiya qoymaq yolu ilə işləyir. Bu banklar qazanclarını gəlirlərdən götürür və faizli kreditlər vermirlər:** "Yəni biznes sahələrinə investisiya yatırırlar və əldə olunan gəlirə şərik olurlar. Ola bilər, bu sistem indiki bankçılığımıza uyğun gəlmir, amma şirkətlərə dəstək vermək və biznesi genişləndirmək baxımından çox müsbətdir".

*Ə.Həsənovun sözlərinə görə, Azərbaycanda dini dəyərlərlə işləyən bankların inkişafı üçün bu sahədə qanunvericilik bazası olmalıdır. Eyni zamanda sahibkarlıq fəaliyyəti şəffaf olmalıdır. Bu sahədə isə vəziyyətin nə yerdə olduğu hər kəsə bəllidir:* "Qanun olmadan belə bir bankçılığın fəaliyyətindən söhbət gedə bilməz. Qonşu ölkələrdən Qırğızıstanda, Qazaxıstanda İslam bankçılığı haqqında qanun var. Sözügedən bankçılıq sələmçilik prinsipini qəbul etmir. Onların qazancı kredit verilən müştərinin gəlirinin payından əldə olunur. Azərbaycanda hansısa sahibkar belə bir kredit götürsə, çalışacaq ki, gəlirinin olmadığını göstərsin, real qazancını gizlətsin. Buna görə də İslam bankçılığı tam şəffaflığı tələb edir. Azərbaycanda isə sahibkarlıq mühiti qeyri-şəffafdır".

**Şeymən**



# Millət vəkili TƏBİB-ə səsləndi

## "Adrenalin" adında dərman yoxdur, 10-larla cərrahiyyə əməliyyatı dayandırılıb"

**"Azərbaycanda dərman çatışmazlığı problemi var". Bu barədə millət vəkili Rüfət Quliyev deyib. Deputat bildirib ki, iclas başlayandan ona bir neçə həkim məlumat göndərib:**

"Bu müraciətlər TƏBİB-ə aiddir. Bu gün bir aydan çoxdur ki, "Adrenalin" adında dərman yoxdur. Bu gün 10-larla cərrahiyyə əməliyyatı dayandırılıb. Bu gün hansısa işbazlar 1 manatlıq olan bu dərmanı 100-150 manata satırlar. İkincisi, qlükoza və hidrogen xlorofil fizioloji məhlul dərmanı tapılmır. Çünki bunlar ölkəmizə Ukraynadan gəlir. Digər tərəfdən, bu dərmanlar Türkiyədə rahat satılır. Bizim bir ay əvvəl fikrimiz var idi ki, Türkiyədə satılan dərmanları Azərbaycana da gətirək. Bu problem təcili aradan qaldırılmalıdır. "Adrenalin" dərmanına görə bu gün həkimlər cərrahi əməliyyat həyata keçirə bilmir. Bu problemin həllini uzatmaq lazım deyil".

*Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov da problemin mövcudluğunu təsdiqləyib:* "Ölkə üzrə bəzi dərman preparatlarının çatışmazlığı ilə üzləşirik. Bunun səbəbi Rusiya-Ukrayna müharibəsidir. Bu problemlər nəinki bizim ölkədə, MDB məkanında bütün ölkələrdə yaşanır. Bir ay içərisində Rusiya və Ukraynadan gələməyən dərmanların Türkiyədən gətirilməsi asan deyil. Çünki dərmanların xarici ölkədən gətirilməsi və lisenziyalaşdırılması məsələsi yenə də mürəkkəb olaraq qalır. Səhiyyə komitəsində bu problemin həlli istiqamətində bürokratik əngəllərin aradan qaldırılması, belə təcili vəziyyətlərdə ayrıca qanunların ortaya qoyulmasına böyük ehtiyac olmasını müzakirə etmişik. Bu gün problemin qarşısı qısa zamanda alınmalıdır".

**İsmayıl**




# "Zəngəzur - Türk dünyasının qapısı"

## Yeni nəşr mütəxəssis, tarixçilər və geniş oxucu kütləsi üçün nəzərdə tutulub

**Özbəkistanlı müəllif Şuxrat Salamovun "Zəngəzur - Türk dünyasının qapısı" adlı nəşr 8-ci Bakı Beynəlxalq Kitab Sərgisində təqdim olundu.**

**Qeyd edək ki, sözügedən kitabın çapına Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi dəstək göstərib.**

Tədbiri giriş sözü ilə açan Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov Şuxrat Salamovun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, erməni daşnakların regionda, o cümlədən Türkistanda həyata keçirdikləri işğal və soyqırım siyasəti mövzusundakı araşdırmaları, bu sahədəki xidmətləri və elmi-publisistik fəaliyyətindən danışıb. S. Abbasov tarixçi-alim Şuxrat Salamovun bu mövzuda onlarla nəşrin müəllifi olduğunu vurğulayaraq "Zəngəzur - Türk dünyasının qapısı" adlı nəşrin olduqca əhəmiyyətli və ilk dəfə olaraq xarici bir müəllif tərəfindən obyektiv şəkildə aparılmış tədqiqatın nəticəsi olaraq hazırlandığını qeyd edib.

S.Abbasov sözünü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zəngəzur dəhlizinin açılması ilə bağlı çıxışından sitatı ilə bitirib: "Zəngəzur dəhlizi artıq reallıqdır və bu dəhlizin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir".

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin müdiri tarix üzrə fəlsəfə doktoru Akif Marifli, çıxışında Zəngəzur bölgəsinin tarixi Azərbaycan torpağı olduğunu vurğulayaraq günümüzdə də Zəngəzur dəhlizinin Az?rbaycan Respublikası, region ölkələri, Türk dünyası, eləcə də Avropa ilə Asiya arasında çox mühüm bir nəqliyyat-kommunikasiya körpüsü olduğunu qeyd edib.

Daha sonra çıxış edən Azərbaycan Ombudsman Aparatının əməkdaşı, Zəngəzurdan olan Azadə Novruzova ermənilərin Azərbaycanın tarixi torpaqları olan Zəngəzurda həyata keçirdiyi etnik təmizləmə siyasəti, milli-mədəni irsimizin məhv edilməsi, saxtalaşdırılması, soydaşlarımızın öz doğma yurdlarından deportasiyası haqqında fikirlərini bölüşərək bu tədqiqat əsərinin qeyd olunan hadisələrin tarixinə işıq tutacaq vacib bir mənbə olacağını söyləyib.

Sonda çıxış edən əsərin müəllifi Şuxrat Salamov nəşrin mütəxəssis, tarixçilər və geniş oxucu kütləsi üçün nəzərdə tutulduğunu və kitabda Cənubi Qafqaz xalqlarının taleyində baş vermiş faciəvi tarixi hadisələr mənzərəsindəki bənzərsiz siyasi proseslərin ətraflı təhlili edildiyini qeyd etdi.



O, fədakarlıq qəhrəmanlıq və şücaətlə qazanılmış böyük Qələbənin nəticəsi olan üçtərəfli Bəyanatın təkcə hərbi əməliyyatların dayandırılması deyil, həm də Cənubi Qafqazda Ermənistanın təxminən 30 il ərzində davam etdirdiyi işğalçı siyasət nəticəsində bölgədə məhdudlaşan iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, inkişafı və bu istiqamətdə qlobal layihələrin həyata keçirilməsinə hüquqi zəmin yaratdığını söyləyib.

Müəllif, ədalətin bərpası olan Zəngəzur dəhlizinin açılmasının nəinki Azərbaycanda, bütün türk dünyasında yeni bir mərhələnin başlanğıcı kimi baxıldığını, Avropa ilə Asiyanı birləşdirəcək əsas xətt, türk dünyası arasında yaranmış bir körpü olacağına inandığını söyləyib.

# Putin bütün dünyaya müharibə elan edib

## "Kollektiv Qərb Rusiya ilə danışıqlara getməyəcək"

**Moskva Vaşinqton və digər qərb ölkələrini nəzarətsiz eskalasiya təhlükəsi barədə xəbərdar edib. Bu barədə Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov deyib. O bildirib ki, ABŞ və NATO ilə birbaşa toqquşma Rusiyanın maraqlarına uyğun deyil: "Biz ümid edirik ki, Vaşinqton və digər qərb ölkələri təhlükəni dərk edəcəklər.**

Kiyevə davam edən genişmiqyaslı yardım, alyans ölkələrinin ərazisində Ukrayna silahlı birləşmələrinin şəxsi heyətinin hazırlanması, real vaxt rejimində kəşfiyyat məlumatlarının, peyk görüntülərinin verilməsi, artilleriya zərbələri üçün hədəflərin müəyyən edilməsi getdikcə daha çox qərb ölkələrini münaqişəyə cəlb edir".

Ryabkov onu da qeyd edib ki, Rusiya adekvat, o cümlədən asimmetrik xarakterli əks tədbirlər görməyə məcbur olacaq.



### "Rusiya müharibənin xarakterini dəyişdi"

Fransa Prezidenti Emmanuel Makron deyib ki, Rusiyanın Ukrayna infrastrukturuna zərbələr endirməsi müharibənin xarakterinin köklü şəkildə dəyişir. Makron qeyd edib ki, Parisə qayıdandan sonra vəziyyəti təhlil etmək üçün hərbi və diplomatik müşavirlərini çağıracaq: "Fransa Kiyev tərəfindən formalaşdırılan hərbi texnika ilə bağlı ehtiyaclara cavab olaraq dəstəyini artıracaq".

### "Bu, ruslarla anqlosaksların savaşıdır"

Ukraynada inkişaf edən münaqişə ruslarla anqlosakslar arasında əsrlər boyu davam edən qarşıdurmanın davamıdır. Bunu Almaniya Bundestaqının keçmiş deputatı, "Almaniya üçün Alternativ" Partiyasının üzvü Valdemar Gerdt deyib. Onun fikrincə, ingilislər və amerikalılar Rusiyanı zəiflətməyə və parçalamağa çalışırlar: "Dünya artıq iki dünya müharibəsindən sağ çıxıb və indi üçüncü müharibənin astanasındadır".

### "Belarus hücum etsə, Qərbin cavabı "hazırdır"

Fransanın Xarici işlər naziri Ketrin Kolonna deyib ki, Minsk Ukraynanın ərazisində Rusiyanın xüsusi hərbi əməliyyatını dəstəkləməyə davam edərsə, Belarus yeni sanksiyalara məruz qala bilər: "Böyük Yeddiliyin bugünkü iclasında təbii ki, Belarus məsələsi qaldırılacaq. Bu dövlətə xəbərdarlıq göndərmək lazımdır. Rusiyanın Ukraynadakı hərəkətlərinə istənilən dəstək əlavə sanksiyalara səbəb olacaq".

### "Sülh ABŞ-Rusiya arasında olmalıdır"

Macarıstanın Baş naziri Viktor Orban söyləyib ki, Ukraynada sülh yalnız Rusiya ilə ABŞ arasında aparılan danışıqlar əsasında mümkündür: "Atəşkəs Rusiya ilə Ukrayna arasında deyil, ABŞ və Rusiya arasında bağlanmalıdır. Bu müharibənin Rusiya-Ukrayna danışıqları ilə bitəcəyini düşünənlər bu dünyada yaşamırlar. Reallıq başqa cür görünür. Ukrayna yalnız ABŞ-dan hərbi dəstək aldığı üçün özünü müdafiə edə bilir. Ona görə də amerikalılar ruslarla razılığa gəlməlidirlər. Və o zaman müharibə bitəcək".

### "Rusiya nüvə təhlükəsi mövzusunu süni şəkildə şişirtməməyə çağırır"

Rusiya Xarici işlər naziri Sergey Lavrov bildirib ki, Moskva nüvə təhlükəsi mövzusunu süni şəkildə şişirtməməyə çağırır. Rusiya XİN başçısı Qərbi bu mövzuda spekulyasiya etməməyə çağırıb: "Qərbdə bu mövzuda spekulyasiya edənlərə öz məsuliyyətini dərk etməyi tövsiyə edərdim. ABŞ "de-fakto" Ukrayna müharibəsində iştirak edir". XİN başçısı ABŞ-ın Ukrayna ordusuna silahlar verdiyini, kəşfiyyat məlumatları ötürdüyünü xatırladıb.

### "Rusiya Belarus ərazisinə İran istehsalı olan PUA-lar göndərir"

Ukrayna Baş Kəşfiyyat İdarəsindən bildirilib ki, Rusiya Belarus ərazisinə İran istehsalı olan PUA-lar göndərir: "Rusiya Belarus ərazisinə İran istehsalı olan "Shahed-136" dron-kamikadzeləri göndərməyə davam edir". Məlumata görə, Rusiya oktyabrın 10-da Belarus ərazisinə 32 ədəd PUA göndərib. Vurğulanıb ki, oktyabrın 14-də daha 8 PUA-nın göndəriləcəyi planlaşdırılır. Qeyd edilib ki, Rusiya "Shahed-136"-nın adını "Qeran-2"-yə dəyişib.

### "Lukaşenko ağılsız hərəkət edərsə..."

Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Rusiya Prezidenti Vladimir Putin təkcə Ukraynaya deyil, bütün dünyaya müharibə elan edib. Onun sözlərinə görə, Rusiyanın Ukraynaya qarşı işğalçı siyasətinin tərkib hissəsi yeni planda "SSRİ" bərpası idi: "Bu plan suya düşdüyünəən əsası tələyə saldığından aqressivləşir. Quru qoşunları Ukraynada darmadağın edilib. Kütləvi raket hücumları ilə istədiyi nəticəni əldə etməsi mümkün deyil. Rəsmi Kiyev həm də kollektiv Qərb Rusiya ilə danışıqlara getməyəcək. Belarusun müharibəyə qoşulması Polşanın bu ölkəyə qarşı hərbi əməliyyatlara başlamasına gətirib çıxara bilər. Şərqi Avropa ölkələri Qərblə Rusiya arasında cəbhə və döyüş meydanı olması mümkündür. Xüsusilə, Belarus Prezidenti Aleksandr Lukaşenko ağılsız hərəkət edərsə, xalqın növbəti mərhələdə ayağa qalxması ilə nəticələnər".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Kəhriz mədəniyyətinə yenidən qayıdılmalıdır

### Artezian quyularının da bərpa edilməsi kənd təsərrüfatının inkişafı üçün böyük imkanlar açır



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans çıxışı zamanı dövlət proqramının əhatə etdiyi genişmiqyaslı layihələrə toxunarkən meliorasiya və su təsərrüfatı sahəsinə xüsusi diqqət ayırmışdı.**

Cənab Prezident vurğulamışdı ki, dövlət proqramının icrası uğurla aparılır. Lakin ölkəmizin idxal faktorundan asılılığının minimuma endirilməsi kənd təsərrüfatının inkişafından asılıdır. Bu isə öz növbəsində əkinə yararlı torpaqların kultivasiyası, əkinə yararlı torpaqların təyinatı üzrə istifadəsini, həmçinin suvarma sistemlərinin dəqiq işləməsinə bağlıdır. Prezident qeyd etmişdi ki, meliorativ tədbirlər infrastruktur layihələri arasında önəmli yer tutur: "Bu infrastruktur layihələri dövlət investisiya proqramı hesabına icra edilmişdir. Bu, bir daha onu göstərir ki, ölkəmizin dayanıqlı inkişafı üçün gözəl zəmin yaradılır. Təbii ki, bütün bu işlər və eyni zamanda, aparılan islahatlar kənd təsərrüfatının inkişafına da güclü təkan verdi. Kənd təsərrüfatı istehsalı son illərlə müqayisədə rekord həddə çatdı. Yəni artım tempi 7 faizdən çox olmuşdur, xüsusilə bitkiçilikdə artım 10 faizdən çoxdur. Bizim kənd təsərrüfatı məhsullarının ixracı artır. Daxili tələbat yerli məhsullar hesabına təmin edilir. Çünki bütün bu işlər bir-biri ilə sıx bağlı olan məsələlərdir". Prezident meliorativ tədbirlərdən danışarkən iki böyük su anbarı - Taxtakörpü və Şəmkirçay tikilməsini vurğuladı: "Bunlar olmasaydı, orada yerləşən rayonlarda su qıtlığı yaranacaqdı. Əgər Taxtakörpü su anbarı tikilməsəydi, keçən il Bakı şəhərini su ilə təmin etmək mümkün olmazdı. Çünki keçənilki quraqlıq bəlkə də tarixdə olmayıb. Biz məhz Taxtakörpüdə yığılan suları Ceyranbatana ötürməklə Bakını fasiləsiz su ilə təmin etdik. Bakıda heç kim hiss etmədi ki, belə ciddi quraqlıq olub. Bütün bu işləri biz ona görə görürük ki, insanlar daha yaxşı yaşasınlar. Hər bir böyük layihənin arxasında düşünülmüş siyasət dayanır. Kəndlərdə su təminatını yaxşılaşdırmaq üçün bu illərdə 1500-dən çox artezian quyusu qazılmışdır və bu proses davam etdirilir. Yüzlərlə kənddə modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır. Ona görə bizim proqramımızın icrasında infrastruktur layihələri xüsusi yer tuturdu. Biz sosial təşəbbüslərlə paralel olaraq, bu layihələri həyata keçirməklə bugünkü reallığı əldə etdik".

Hazırda isə Azərbaycan dövləti qarşısında daha böyük işlər dayanır. 30 ilə yaxın müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərimiz artıq azaddır və bu Böyük Qələbə regionlarımızın inkişafı, o cümlədən kənd təsərrüfatının inkişafı üçün geniş perspektivlər açır. Kənd təsərrüfatının inkişafının su mənbələrindən səmərəli istifadədən keçdiyi isə məlum həqiqətdir. Torpağa can verən sudur. Su olmasa, kəndli torpağı nə əkə biləcək, nə də məhsul əldə edəcək. Bəzi regionlarda isə su problemi qalmaqdadır. Bu məsələ Milli Məclisdə də səsləndirilib. Millət vəkili Aqil Abbas Ağcabədi rayonunda artezian quyularından istifadə edilmədiyini deyib. Millət vəkili bildirib ki, Ağcabədi rayonundakı artezian quyularından 115-i işləmir. Meliorasiya və Su Təsərrüfatı" ASC cəmi 11 quyunun bərpası üçün pul ayırıb. Əkin sahələri susuzluqdan yanır. İçməli su təchizatı üçün qazılmış artezian quyuları da pis vəziyyətdədir. Millət vəkili Yaponiya hökumətinin rayonda bir neçə artezian quyusu qazdığını da yada salıb, kəndlinin ehtiyacı olan artezian quyularının bərpası üçün yerli kadrların çalışmalı olduğunu deyib. Məlumdur ki, bölgələrdə əkin sahələrinin suvarılmasında, içməli su probleminin aradan qaldırılmasında, həmçinin kəhrizlər böyük əhəmiyyətə malikdir. Bir müddət əvvəl Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov bildirmişdi ki, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Gəncə, Qazax, Goranboy və Göygöl rayonlarının ərazisində 40-a yaxın kəhrizin bərpası nəzərdə tutulur. Bu işlər "Azərbaycanda kəhriz su sistemlərinin bərpası vasitəsilə məcburi köçkünlərin məskunlaşdığı ərazilərdə kənd yerlərinin kompleks inkişafı" layihəsi çərçivəsində aparılacaq. Koreya hökuməti də Azərbaycanda kəhrizlərin bərpası layihəsinə 1,2 milyon dollar vəsait ayırıb. Layihə tamamlandıqdan sonra 8 000 insan öz doğma yurdunda təmiz su ilə təmin oluna bilər. Qeyd edilir ki, Beynəlxalq Miqrasiya Təşkilatı müxtəlif donor təşkilatları ilə birgə Azərbaycandakı kəhrizlərin bərpası ilə bağlı bir çox layihələr həyata keçirir. Bugünədək ümumilikdə kəhrizlərin bərpası ilə əlaqədar 10 layihə icra edilib. Bundan əvvəl də Qarabağ bölgəsində kəhrizlərin bərpası prosesi icra edilib. Məsələn, Ağdam rayonunun Əhmədağalı kəndinin ərazisindəki kəhriz quyuları müasir texnoloji üsullardan istifadə edilməklə bərpa olunub. Məqsəd əhalinin suya tələbatının qarşılanması, su təminatının yaxşılaşdırılması, həmçinin suvarmada kəhriz suyundan istifadədir.

**Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Həvva Məmmədova Qarabağ torpağında kəhriz mədəniyyətinin əsrlər öncə mövcud olduğunu dedi:**

- Kəhrizlər, artezian quyuları suvarmada böyük əhəmiyyət daşıyır. Bir vaxtlar torpaqların suvarılmasında kəhrizlərdən də istifadə olunub, artezian quyuları hesabına fərdi təsərrüfatlarda su qıtlığı aradan qaldırılıb. İndi qlobal su qıtlığı fonunda kəhriz mədəniyyətinə də yenidən qayıdılmalı, artezian quyularının da fəaliyyəti bərpa edilməlidir. Xüsusən kəhrizlərin bərpası çox faydalıdır. Kəhrizlər qədim suvarma mədəniyyətidir. Azərbaycan ərazisində tarixən əkinçilikdə kəhriz sularından istifadə olunub. Vaxtilə kəhrizlərin qazılması işini bilən kənkanlar vardı. Onlar işlərinin ustası idilər. Qarabağda da ta qədim dövrlərdən suvarma üçün kəhriz quyuları qazılıb, kəhriz suyundan istifadə edilib. Hektarlarla torpaq sahələrini kəhriz sularıyla suvarıblar, dəyirman işlədiblər. Kəhrizin suyu daim buz kimi sərin olur. Qarabağ torpağı həmişə bərəkətli olub. Pambığı, üzümü, meyvə-tərəvəzi ilə məşhur idi Qarabağ. Su qıtlığı da yaşanmazdı, çünki bol sulu çaylar vardı, kəhrizlər qazılardı və əhalinin həm içməli su, həm də suvarma üçün ehtiyacı ödənərdi. Amma Aran zonalarında su qıtlığı yaşanırdı. Sonra da nankor qonşularımız bizə su qıtlığı yaratmağa başladılar. Nankor qonşularımız qışda suyu qəsdən açıb buraxırdılar, əkin sahələrini məhv edirdilər, yayda isə suyun qarşısını kəsməklə təsərrüfatlara ziyan vururdular. Şükür ki, artıq Qarabağımız azaddır və bu barlı-bərəkətli torpaq doğma insanlarını qarşılayır, yenə də Qarabağ torpaqlarında əkin-biçin olacaq, bol məhsul əldə ediləcək. Kəhrizlərin bərpası kənd təsərrüfatının inkişafı üçün də böyük imkanlar açır. Məsələ təkcə işğaldan azad edilmiş torpaqlarla bağlı deyil. Azərbaycanın bütün regionlarında kənd təsərrüfatının - əkinçilik, heyvandarlıq, bitkiçiliyin sürətli inkişafına çalışılmalıdır. Çünki dünyada qlobal iqtisadi böhran gözlənilir, ərzaq qıtlığı təhlükəsi var. Biz çalışmalıyıq ki, böhrandan minimum itkiylə çıxaq, əhalimiz korluq çəkməsin. Bunun da yolu torpaqların becərilməsindən, əkin-biçindən keçir. Buna da bol su lazımdır. Gərək su ehtiyatlarından səmərəli istifadə olunsun. Su itkisinin qarşısı alınsın, həmçinin suyun düzgün paylanması həyata keçirilsin. Elə olmasın ki, kiminsə əkin sahəsinə su verilsin, amma kimsə suya həsrət qalsın. Ölkəmizin kənd təsərrüfatının inkişafı bu amildən çox asılıdır. Cənab Prezident də həmişə su probleminə diqqət ayırır, gücünü-qüvvəsini sərf edir ki, təsərrüfatla məşğul olanların iş və həyat şəraiti yaxşılaşsın, bölgələrimiz daha da inkişaf etsin.

*"Məsələ təkcə işğaldan azad edilmiş torpaqlarla bağlı deyil. Azərbaycanın bütün regionlarında kənd təsərrüfatının - əkinçilik, heyvandarlıq, bitkiçiliyin sürətli inkişafına çalışılmalıdır"*

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Aylarla qapılar döyürlər

### Vətəndaşlar sığorta şirkətlərinə etibar etmir

**Milli Məclisin dünən keçirilən iclasında deputat Razi Nurullayev sığorta şirkətlərindən və yol polisindən şikayətlənib. Millət vəkili bildirib ki, istər avtonəqliyyat, istər daşınmaz əmlak və digər sığorta növlərində göstərilən xidmətlərdən narazılıq çoxdur:**

"Sığorta sisteminin dəqiq və şəffaf işləməsi həm də dövlətin yükünün azaldılması deməkdir. Bu gün onlarla şirkət tərəfindən müxtəlif sığorta xidmətləri göstərilsə də, vətəndaşlar onlara hələ də etibar etmir". Parlament üzvü bu etibarsızlığın müxtəlif səbəbləri olduğunu bildirib: "İstər avtonəqliyyat, istərsə də daşınmaz əmlakla bağlı sığorta hadisəsi yarananda, sığortaçı bütün əyri yolları işlədir ki, ya sığorta ödənişini ödəməsin, ya da az ödəsin. Mən insanlar tanıyıram ki, başına açılan oyunlardan bezərək sığorta pulundan imtina edib. Bir neçə il bundan qabaq "Atəşgah" Sığorta Şirkəti ilə bağlı bir sığorta hadisəsi yaşadıq. Mən müxtəlif üsullardan istifadə edib rəhbərliyə, ən azından bir şöbə müdirinə çıxmaq istədim, mümkün olmadı. "Qaynar xətt"ə zəng etməli olursan, bir xanımla danışırsan, o da eyni sözləri dalbadal təkrar edir. Bilmirsən canlıdır, yoxsa robot. "Facebook"da bir paylaşım etdim, şərhlər bölümündə 500-dən çox şərhi oxusaydınız görərdiniz ki, sığorta bazarı hansı vəziyyətdədir. Digər bir məsələ isə sığortaolunanın həftələrlə, aylarla qapılar döyməsidir. Bəzən kiçik avtonəqliyyat hadisəsində belə vətəndaş həftələrlə incidilir. Avtoqəza olub, avtonəqliyyat vasitəsi əzilib, sürücü və sərnişinlərin isə heç burnu da qanamayıb. Lakin iş polisə verilir ki, araşdırılsın, sonra isə sürücü polisdən kağız gətirib sığorta şirkətinə verməlidir. Buna nə ehtiyac var?".

**Razi Nurullayev yol polisindən də şikayətlənib:** "Bəzi yol polislərinin yerli-yersiz avtomobilləri saxlaması, avtonəqliyyat vasitələrinin arxasınca düşüb qovması da haqlı narazılıq yaradır. Yol polisləri millət vəkillərinə hörmətlə yanaşır, narazılığımız yoxdur. Sadəcə, bu məsələləri çoxsaylı sürücülərin maraqları üçün deyirəm. Birincisi, avtomobili qovmaq təhlükəlidir və insan tələfatına gətirib çıxara bilər. Mənim məntiqimə görə, şübhəli şəxsi, cinayətkarı qovmaq və həbs etməyə çalışmaq olar. Amma bir sürücü tabe olmadısa, digər hərəkət iştirakçılarına da təhlükə yaradaraq onu qovmağa ehtiyac yoxdur. Hər tərəf, bütün Azərbaycan kameralarla əhatə olunub. Asanlıqla o yol hərəkəti pozan avtomobili müəyyən edib aidiyyəti üzrə dəvət etmək, cərimələmək mümkündür".

**Deputat avtomobil yollarında DYP postlarının funksiyasına əlavələr edilməsini təklif edib:** "Bu postlarda avtonəqliyyat vasitələrinin saxlanması zərurəti getdikcə sıradan çıxır. Çünki onların gördüyü işi indi radarlar tam olaraq yerinə yetirə bilir. Buna görə də bu postlarda ana və uşaq otağının, əsas dərman preparatlarının satıldığı guşənin, vəziyyəti ağırlaşan avtonəqliyyat sahiblərinin müvəqqəti dincələ biləcəyi otağın təşkil edilməsini, icbari sığorta və digər xidmətlərin göstərilməsini istərdim. Bu posta yaxınlaşan sürücü qayda pozuntusu ilə bağlı yalnız narahatlıq hissi yox, həm də xidmət görüb xoş hisslər keçirsin. Bu həm də polislə vətəndaşlar arasında daha böyük dostluq körpüsünün yaradılmasına yardımçı olar".

**İsmayıl**

# Sosial şəbəkədə fırıldaqçılar ayaq tutur, amma yerimir

### Daha bir maliyyə piramidası ifşa olundu

**Son zamanlar Azərbaycanda vətəndaşlar maliyyə piramidası fırıldaqçılığı ilə üzləşirlər. Maliyyə piramidası iştirakçılarını daim yeni maliyyə mənbələrinə cəlb edərək mənfəət əldə etmək üçün bir yoldur. Layihənin ilkin mərhələsində ona üzv olanlar maliyyə piramidasından vəd edilmiş qazancı əldə edə bilirlər.**

Sonradan isə həvəslənib daha çox vəsait yüklədikləri zaman dələduzların toruna düşürlər. Piramida əsaslı maliyyə dələduzluğu hallarının baş verməsi barədə bir çoxumuzun bilgisi olsa da, hələ də insanların bu cür fırıldaqçıların toruna düşmələri əslində, əhalinin yetərincə məlumatlı olmadığını göstərir.

Qeyd edək ki, sosial şəbəkədə vətəndaşlara qarşı dələduzluq edən əmioğlular tutulub. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Şirvan regional qrupundan məlumat verilib. Bildirilib ki, bir neçə İmişli rayon sakini rayon polis şöbəsinə (RPŞ) müraciət edərək fərqli vaxtlarda internet resurslarında fəaliyyətdə olan platformaların birinə ikiqat qazanc əldə etmək üçün müxtəlif miqdarlarda pul yüklədiklərini, lakin sonradan dələduzluq sxeminin toruna düşərək aldandıqlarını deyiblər. Daxil olan müraciətlərlə bağlı RPŞ-nin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində vətəndaşlara qarşı dələduzluq edən iki nəfər şəxs, rayonun Xəlfəli kənd sakinləri - Vüqar Qafarov və onun əmisi oğlu Bahadur Qafarov saxlanılıblar.

Araşdırma zamanı məlum olub ki, saxlanılan şəxslər sosial şəbəkələrdə yaradılan maliyyə piramidasına qısa müddət ərzində xeyli sayda vətəndaşı cəlb edə biliblər. Onlara müraciət edən şəxsləri isə guya bu platformaya investisiya qoyduqları zaman yüksək qazanc əldə edəcəklərinə inandıraraq vətəndaşların etibarından sui-istifadə etməklə aldadıblar. Piramidaya qoşulan şəxslərə əvvəlcədən ikiqat gəlir, eləcə də platformaya cəlb etdikləri hər bir şəxsə görə həmçinin qoşulma üçün ödədikləri pullardan aylıq gəlir şəklində ödənişlər vəd olunub.



*Osman Gündüz: "Biz zaman-zaman vətəndaşları maarifləndiririk ki, daimi pul qazandıran belə bir mexanizm yoxdur"*

Faktla bağlı İmişli RPŞ-nin İstintaq Bölməsində Cinayət Məcəlləsinin 178.2.1-ci (dələduzluq), 178.2.2 və 178.2.4-cü maddələri ilə cinayət işi başlanılıb. Saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

**Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz bu cür dələduzluq hallarının bir vaxtlar inkişaf etmiş ölkələrdə də geniş yayıldığını deyib. Onun sözlərinə görə, əvvəllər bu hallar real dünyada olurdu. Azərbaycanda da internetdən kənar, real dünyada belə hallar olub və hüquq-mühafizə orqanları tərəfindən bu kimi halların qarşısı alınıb:** "Maliyyə piramidaları insanlar üzərindən daha çox pul qazanmaq üçün bir şəbəkə sxemi əsasında fəaliyyət göstərir. Yəni siz oraya özünüzlə bərabər, başqalarını da cəlb edəndə daha çox qazanc əldə edirsiniz. Yaxud da yeni gələn adamların pulları yığılır və köhnə istifadəçilərə təqdim olunur. Bəzi adamlar bu ödəmələrə aldanıb daha çox yatırım etməyə başlayırlar. Amma bu piramidalar bir yerdə ya öz-özünə dağılır, ya da şahid olduğumuz kimi, dövlət işə müdaxilə edir. Piramida dağılanda bütün qolları da çökür və maliyyə itkisi ilə nəticələnir.

10-20 il öncə, hələ internetin bugünkü səviyyədə olmadığı vaxtlarda vətəndaşları aldadan bu xarakterli dələduz qruplar mövcud idi. Həmin şirkət rəhbərləri qabaqcadan bilərək ki, xeyli sayda insana verdikləri vədi yerinə yetirərək onları müəyyən şirnikləşdirici vədlərlə aldadaraq bu sistemə cəlb edirdilər. İndi isə son 5-10 ildir bunlar internetə, o cümlədən, Azərbaycanın sosial mediasına inteqrasiya olunub. Biz zaman-zaman mediada bu hallarla bağlı vətəndaşları maarifləndiririk ki, daimi pul qazandıran belə bir mexanizm yoxdur. Bu, bir piramida xarakterli dələduzluğa söykənən maliyyə fırıldağıdır. İstisna deyil ki, oyuna ilk girənlər müəyyən uğurlar əldə edəcəklər. Amma şirkət rəhbərliyinə qabaqcadan məlum olur ki, xeyli sayda - minlərlə, milyonlarla insana bu cür pul vermək mümkün deyil. Yəni onlar bilərəkdən bu oyuna vətəndaşları cəlb edirlər və yalnız özləri ordan müxtəlif komissiyalarla, fərqli üsullarla pul qazanırlar. Vətəndaşlar ayıq-sayıq olmalı, aldanmamalıdırlar. Az pul ödəməklə böyük milyonlar qazanmaq heç yerdə yoxdur. Bu istiqamətdə Daxili İşlər Nazirliyinin atdığı addımlar doğrudur. Amma bunu vaxtında etmək lazım idi. Yəni bu tip addımlar dərhal atılmalıydı. Çünki belə şəbəkələr uzun müddətdir fəaliyyət göstərirdilər və elə indi də fəaliyyət göstərənlər var. Hesab edirəm ki, bununla bağlı ciddi maarifləndirici işlər aparılmalıdır. Hökumət bu məsələ üzərində tədbirləri gücləndirməli və sərtləşdirməlidir".

Bazarda bu cür platformaların kifayət qədər olduğunu vurğulayan ekspert deyib ki, onlar adətən xaricdə qeydiyyatdan keçir, müəyyən ofşor bank hesablarında hesab açdırıb özlərini xarici şirkət kimi təqdim edirlər. Mütəmadi olaraq ya ad, ya qeydiyyatını dəyişdirir, müxtəlif adlarla bazara çıxıb investisiya etmək məqsədi ilə pul alırlar. Bu tipli şəbəkələr özlərini ilkin olaraq investisiya platforması kimi təqdim edir".

**Şəymən Bayramova**

# Bina evlərində it saxlayanlar...

## Qonşular narazıdır, amma problemin həll yolu görünmür

**Son illər bina evlərində it saxlayanların sayı bir xeyli artıb.**

**Doğrudur, əvvəllər də Bakıda evdə heyvan saxlayan ailələr olub. Ətrafdakılar da buna əsasən loyal yanaşıb. Ən azı ona görə ki, bu, bir kimsəni narahat etməyib.**

İndi isə Azərbaycanda itlərin evdə saxlanmasına münasibət birmənalı deyil.

Əksər hallarda çoxmənzilli binalarda ev heyvanı saxlamaq ətrafındakı qonşular, insanlar üçün diskomfort yaradır. Qonşular uzun-uzadı zingildəyən, hürən itlərin əlindən zara gəlir. Dəfələrlə şahidi olmuşuq ki, liftin qapısı açılar-açılmaz bizi qorxudaraq ilk qarşılayan iri itlər olur. Əksər hallarda itlərin qoruyucu ağızlığı - buruntağı olmur. Bu isə ətrafda olan digər insanlara, xüsusən də uşaqlara təhlükə yaradır. Belə ki, həmin itlərin anidən kiməsə hücum etməyəcəyindən heç kim sığortalanmayıb.

**Jurnalist Məhəmmədəli Qəribli bu barədə narazılığını şəxsi "facebook" hesabında dilə gətirib:** "Azərbaycanlı ailələr evdə it saxlamazdılar. Görmüşdük ki, Bakıda evində iti əsasən qeyri-millətlər saxlayırdı. Söhbət həyətdə deyil, bina evindəki mənzildə it saxlamaqdan gedir.

Yaşadığım mərtəbədə dörd mənzil var. Onlardan ikisi kirayədi. Kirayəşinlər hər iki mənzildə it saxlayır. İtlər nə sortdurlarsa, olduqca həssasdılar. Lift mərtəbədə dayanan kimi, hürməyə başlayırlar. Biri hürən kimi, o biri ona səs verir, zingiltidən qulaq batır. Bəzən yatan adam onların səsinə oyanır. Kirayə olan hər iki mənzildə kişi görmürəm ki, dərdimi ona deyim. Qadınlarla isə belə mövzuları müzakirə etmək istəmirəm. İş burasındadır ki, itlərin hürməsini özümüz birtəhər yola verərik. Evdəki körpə uşaq bundan çox qorxur. Yadıma lap məşhur filmdəki epizod düşdü: "Kirayə qaldıqları bəs deyil, hələ toyuq-cücə də saxlayırlar". Vallah, toyuq-cücəni yola vermək olar, amma bu itlər bizi ciddi narahat edir. Evdə it saxlamaqla bağlı bu nə dəbdi düşüb, anlaya bilmirəm "



Qeyd edək ki, Nazirlər Kabineti 2011-ci ildə yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanılması ilə bağlı qərar qəbul edib. Həmin qaydalara əsasən ev heyvanları saxlayan şəxslər ərazinin epizootoloji sabitliyini və insanların sağlamlığını qorumağa borcludurlar. Şəxslərə məxsus ev heyvanlarının yoluxucu xəstəliklərə qarşı peyvəndlənmələrini, diaqnostik müayinələrini, digər baytarlıq-sanitariya tədbirlərini təşkil etmək məqsədilə onların ərazi baytarlıq idarələrində uçota alınmaları (identifikasiya olunması) insanların sağlamlığı və ərazinin epizootoloji sabitliyinin qorunması baxımından yerinə yetirilməsi vacib olan mühüm dövlət baytarlıq tədbiridir.

Yalnız baytarlıq, sanitariya-gigiyena, səs-küy və digər normaları pozmamaqla, şəhərdə və şəhərtipli qəsəbələrdə çoxmərtəbəli binaların ayrıca mənzillərində yaşayan hər bir ailəyə qonşulara narahatlıq yaratmamaq şərti ilə bir it və iki pişik saxlamağa icazə verilir.

Baytarlıq və sanitar-epidemioloji orqanların rəsmi razılığı əsasında "canlı təbiət" guşələrində, uşaq və yeniyetmə müəssisələrində, yay və qış idman-sağlamlıq ocaqlarında, sanatoriya-kurort müəssisələrində (istirahət evlərində, pansionatlarda və s.) ev heyvanlarını saxlamaq olar. Şəhərdə və şəhərtipli qəsəbələrdə lazımi qaydada çəpərlənmiş və təcrid olunmuş ərazilərdə itlərin sərbəst gəzintisi təşkil edilə bilər.

**İlahiyyatçı Tural İrfan isə "Şərq"ə açıqlamasında deyib ki, islam dinində iki heyvan: donuz və it murdar hesab edilir:** "Həmçinin hər ikisinin əti də haram sayılır. Peyğəmbərdən (s) nəql olunan hədisdə qeyd olunur ki, it olan evə və həyətə mələk girməz. Lakin evdən kənarda malqara saxlanan axırlarda, fermalarda qoruqçu kimi it saxlamağın eybi yoxdur. Tibbi-gigiyenik tərəfdən də itin tükündə, ifrazatında bir çox qorxunc xəstəliklərin olduğu sübut olunub. Təbii ki, evdə it saxlamaq müsəlman ənənəsində yoxdur, bu, qərb adətidir. Lakin buna baxmayaraq Qərbin özündə də artıq bir çox təşkilatlar tərəfindən bu ənənə tənqid edilməyə başlayıb. Şəriətdə evdə it saxlamaq qadağandır. Həyətdə isə o zaman icazəlidir ki, ona toxunulmasın, onunla təmasda olunmasın. Hətta namaz qılan insanın üstündə itin ağzının suyu, tükü olarsa, onun namazı batil hesab edilir".

**Psixoloq Orxan Oruc isə hesab edir ki, əvvəlki dövrdə heyvan saxlamaqla indiki dövrdə heyvan saxlamaq arasında fərq var:** "Bu fərqliliklərdən ən başlıcası son illərdə heyvan bəsləməyin bir mədəniyyət forması almasıdır. Ölkəmizdə bu ənənə yeni sayılsa da, şəhərdə kifayət qədər ey heyvanları bəsləyən insanlar var. Ev heyvanları saxlamağın çox sayda müsbət tərəfləri var. Bu da heyvan saxlayan insanların günügündən sayının çoxalmasına səbəb olur. Xüsusilə qərb ölkələrində ev heyvanı saxlamaq adi tələbata çevrilib. Hətta bəzi ölkələrdə ev heyvanları üçün xüsusi qəbiristanlıqlar belə var".

Psixoloq deyib ki, insana təbiəti xatırladan hər şey xüsusi bir rahatlıq və yüksək əhval-ruhiyyə verdiyi kimi, ev heyvanları saxlamaq da bu kimi hisslər yaradır.

**Şəymən Bayramova**



# Şəhidlər anılanda ayağa durun, xanım direktor!

## "Məktəb rəhbəri şagirdlərlə danışmalı və kollektivin qarşısında üzrxahlıq etməlidir"



**"161 saylı məktəbdə yaşanan hadisə qəbuledilməzdir. Bu hörmətsizliyə iynə ucu qədər də bəraət qazandırılmasına yer yoxdur".**

*Bunu "Şərq"ə açıqlamasında "AzEdu.az" Təhsil portalının baş redaktoru Elmin Nuri 161 saylı məktəbin direktorunun yayılan videosundan danışarkən deyib.*

O bildirib ki, bu hadisə şagirdlərin psixologiyasına ciddi zərbə vura bilər: "Mən videonu bir neçə dəfə izləmişəm. Tədbirin aparıcıları olan uşaqlar açılış etdikdən sonra şəhidlərimizin ruhunun 1 dəqiqəlik sükutla yad edilməsini bildirirlər. Bu zaman bütün oturan şəxslər ayağa qalxmalı və şəhidlərin ruhuna ehtiramını nümayiş etdirməlidir.

Bütün rəsmi və qeyri-rəsmi tədbirlərdə belə olub. Vətən müharibəsindən sonra hətta toylarda da belə bir adət yaranmışdı.

Direktorun şagirdlərin, valideynlərin və müəllimlərin önündə belə bir hərəkət etməsi isə yolverilməzdir.

Görüntüləri izlədikdə görürük ki, sükutdan sonra məktəbin rəhbəri ayağa qalxaraq çıxış edir. Bu da onun ayağa qalxmaqla bağlı probleminin olmadığını sübut edir".

**Baş yazar vurğulayıb ki, Bakı şəhər Təhsil İdarəsi məsələ ilə bağlı araşdırma aparacağını bildirib:** "Mən İdarənin operativ və doğru qərar verəcəyinə şübhə etmirəm. Çünki onların bu istiqamətlərdə xeyli addımlar atdığının şahidiyəm. İnanıram ki, bu məsələ ilə bağlı da doğru qərar veriləcək. Ona görə ki, bu, uşaqlara pis örnəkdir. Şagird psixologiyası ağ kağız kimidir. Ora nə yazsan, o da qalacaq. Oradakı azyaşlı uşaqlar məktəbi bitirənə kimi bu hadisəni xatırlayacaqlar.

Düzdür, mən həmin direktoru tanımıram. Bəlkə onun da vətənpərvərlik naminə atdığı addımlar olub. Amma gördüyümüz kadrlar ürəkaçan deyil. Məktəb rəhbəri ən azından şagirdlərlə danışmalı və kollektivin qarşısında üzrxahlıq etməlidir".

**Nihat Müzəffər**

# Nə gözəl ki, onların günüdür

## Sosial şəbəkələr qız övladlarının şəkilləri ilə dolub-daşdı



(Əvvəli səh: 8-də)

**"Qızlara, onların təhsilinə və hüquqlarına sərmayə qoymaq ümumi gələcəyimizə sərmayə qoymaqdır". Bunu da BMT-nin Baş katibi Antonio Quterreş "Twitter" hesabında yazıb. O bildirib ki, qızların inkişafı bütün cəmiyyətin inkişafıdır.**

"Gəlin, qızların sağlam, təhsilli və təhlükəsiz olması üçün səylərimizi ikiqat artıraq", - Baş katib vurğulayıb.

**Pediatr Vaqif Qarayev isə belə deyib:** "Bəs deyirdiniz qız övladlarını sevmirik!? Onları ana bətnində məhv edirik. Hüquqsuz böyüdüb, təhsil haqlarını əllərindən alırıq. Zorla ərə verib, "ər çörəyinə" möhtac qoyuruq!!!

Elə deyilmiş, feysbukda qız övladlarının şəninə xeyli paylaşımlar görüb, xoş sözlər oxudum. Bütün övladları Allah saxlasın! Amma mənim fikrimcə, ailədə qız uşaqları xüsusi sevgi ilə böyüməlidir ki, ölkəmizdə "ər çörəyi" ifadəsi unudulsun".

**Sosioloq Lalə Mehralı isə Qızlar günü münasibəti ilə şahidi olduğu hadisəni paylaşaraq ataların qız övladlarına qarşı münasibətlərini müqayisə edib.**

- 15 il əvvəl Əfəndiyev adına xəstəxanada idim, oğlum dünyaya gəlmişdi. Orada qaldığım 4 gün ərzində illərlə yaddaşımdan silinməyən bir hadisəyə şahid olmuşdum. Qonşu palatada səs-küy eşitdim. Tibb bacıları, həkimlər qışqırırdılar. Dəhlizə çıxanda gördüm ki, bir kişi 4 gün əvvəl dünyaya keysər əməliyyatı ilə uşaq gətirmiş qadını vəhşicəsinə döyür. Gözü heç nəyi görməyən kişi qadının harasına gəldi yumruqlar, təpiklər vurmağa çalışır, "köpək qızı, it qızı, əclafın balası, sənə deməmişdim qız olsa özündən küs?! Di al payını, di öl, di gəbər, köpəyin balası! Rədd ol dədənin xarabasına, gəlmə evə!" deyə söyüşlər yağdırırdı. Əli ilə qarnındakı tikişi qorumağa çalışan qadın isə ətrafına toplaşan qadın həkimlərdən, tibb bacılarından kömək istəyirdi. Həkimlərin hamısı qadın idi, heç kimin gücü çatmırdı kişini qadından uzaqlaşdırmağa. İki-üç dəqiqə beləcə davam etdi, ta ki, tibb bacılarından biri qonşu şöbələrdən kişi həmkarlarını köməyə çağırana qədər. Kişi həkimlər qadını döyən oğlanı birtəhər şöbədən çıxardılar.

Palatamıza girib-çıxan yaşlı tibb bacısından öyrəndik ki, birinci uşaqları da qızdı, ikincinin qız olacağını qadın ərinə deməyib ki, aborta göndərər, o da qız doğduğuna görə döyüb.

Ara yeni sakitləşmişdi ki, yaşlı bir kişinin qaça-qaça dəhlizdən keçdiyini gördük. O həm qaçır, həm də

### "Bəs deyirdilər qız övladlar sevilmir. Elə deyilmiş, ürəyimiz dağa döndü"



qışqırırdı. Həkimlərin, xəstəxana rəhbərliyinin ünvanına kobud sözlər işlədirdi. Səs-küy yatışdı, uşaqların yemək vaxtı gələndə yaşlı tibb bacısı palatamızın qapısını açıb arabadakı uşaqları gətirdi və bizə hadisənin gerisini danışdı.

Sən demə, dəhlizdə bu dəfə səs-küy salan yaşlı kişi döyülən qadının atası imiş. O, qızından telefonda əri tərəfindən döyüldüyünü eşidən kimi təngnəfəs özünü xəstəxanaya çatdırmışdı. Qızının döyülməsinə görə xəstəxana işçilərini bir xeyli danlayıb, qız doğduğuna görə arvadını döyən kürəkəninə isə deməyə söz tapmayıb, eləcə "dilim quruyaydı o qalstuklu eşşəyə qız verdiyim yerdə" deyib. Hamımızın qucağında 2-3 günlük körpəmiz vardı, kimidə qız, kimidə oğlan. Hamı gözünü öz körpəsinə dikmişdi, hamı dərin-dərin düşünürdü. Bir arvadını döyən "kişi"ni fikirləşirdik, bir qızına arxa duran ATAnı. Bayaq bütün kişilərin arxasınca deyinən gənc analardan biri isə özünü saxlaya bilməyib hönkür-hönkür ağladı...

Bu gün Beynəlxalq Qızlar günüdür. Bu hadisə ona görə xatirimdə canlandı. Dost siyahımdakı bütün ATALARI təbrik edirəm, Beynəlxalq Qız Övladı Günündə fəxrlə öz qız övladlarının fotosunu paylaşan bütün ATALARI təbrik edirəm! Sizin kimi kişilərlə o qızlara gələcək qurmaq asan olacaq, var olun!".

**Millət vəkili Fazil Mustafa isə "Şərqdə qızlar günü" başlıqlı postunda "Şərqdə doğulan qızların günü olurmu? Məsələn, Əfqanıstanda, İranda, Ərəbistanda, Banqladeşdə və bir az da bizim Azərbaycanda qız övladının hansı gününü təbrik etmək olar" sualına cavab axtarıb. Deputatın fikrincə, bu ölkələrdə qızları heç doğulmağa qoymurlar:** "Ana bətnindəcə öldürürlər. Müasir texnologiya qədim ərəb toplumunda olduğu kimi sadəcə onların diri-diri basdırılmasına imkan vermir. Şərqdə müasir texnologiyanı həm də buna görə sevirlər. Qız olması aparatdan bəlli olan kimi öldürməyə qərar verirlər. Biz azərbaycanlıların şərqli tərəfi o qızları abort etdirərək öldürənlərdir. Çevrəmizdə çox sayda mədəni görünüşdə qız övladını qətlə yetirmiş analar, atalar yaşayır. Yaxşı ki, bizim bir az da avropalı tərəfimiz var. Təhsil alan, azadlığına, ləyaqətinə sayğı göstərilən Azərbaycan qızları bizim avropalı tərəfimizin görüntüsüdür. Narkomaniya, fahişəlik, cinayətkarlıq məsələsində isə Şərqlə Avropanın ayrılmaz şərikliyi var.

Ölümdən qurtulanlar necə, xoşbəxt sayıla bilirlərmi? Qarşıda bizim şərqli tərəfimizə uyğun yarımçıq təhsil gəlir, erkən nikah gəlir, könülsüz ailə qurmaq gəlir, boşanmaq gəlir, aylarla aliment gözləmək gəlir. Yaxşı ki, bu məmləkətdə avropalı tərəfimiz bir az ağır basır, qız övladına təhsil veririk, sağlam ailə qurmasına, ləyaqətli yaşamasına imkan veririk. Bu gün İranda, Əfqanıstanda, Ərəbistanda yaşayan qızların aqibətini gördükcə daha dərindən anlayırıq ki, qız övladlarına ayrıca diqqət yetirməliyik, onların şəxsiyyətli, ləyaqətli vətəndaş olması üçün bütün əngəlləri ortadan qaldırmalıyıq. Birinci növbədə onlara keyfiyyətli təhsil verməliyik, onların sağlam böyüməsinə çalışmalıyıq, onları gələcəkdə quracaqları ailənin mənəvi dirəyi olması üçün hazırlamalıyıq. Qız övladı əslində ailənin zərifliyinin qoruyucusudur. Qız övladına özəl dəyər verilən ailələr hər cür sayğıya layiqdirlər. Sevimli qızım Duru da daxil olmaqla bütün qız övladlarına dünyanın ən gözəl nemətlərini arzulayıram".

**Yazar Aysel Əlizadə də Beynəlxalq Qızlar Günü münasibəti ilə bütün qız uşaqlarını təbrik edib: "Bildiyiniz yolu əminliklə addımlayın.** Zarıyanları, skeptikləri həyatınızdan uzaq tutun. Hər günü, hər saatı xoşbəxt yaşayın. Yuxudan oyanmaq yenidən doğulmaq kimi bir şeydi. Yaşamaq nə gözəldi Şüuraltınızı dəyişin, həyatınızı dəyişin. Sevdiyiniz işlə məşğul olun, kitab oxuyun, hər gün nəsə öyrənin, əziz insanlarla vaxt keçirin. Qadın doğulmanızla qürur duyun. Hər işi qadın kimi edin! AFFA-nın Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Firuz Abdulla Beynəlxalq Qızlar Günü münasibəti ilə qızı ilə fotosunu paylaşaraq "Kölgəsi kölgəmdən kiçik, özü varlığım boyda..." yazıb.

**Şəymən Bayramova**

**Elan**

Nərimanov-14 Mənzil Mülkiyyətçilərinin Müştərək Cəmiyyətinə məxsus möhür (VÖEN: 1504623921) itdiyi üçün etibarsız sayılır.

Məmmədov Rüfət Qəhrəman oğluna Nərimanov rayonunda yerləşən 200 saylı məktəb tərəfindən verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2932**



## Tibb bacısı hakim qarşısında...

7 körpəni öldürməkdə ittiham olunur

**İngiltərənin Çester şəhərində 7 körpəni öldürməkdə və 10 körpəni öldürməyə cəhddə ittiham olunan tibb bacısı Lüsi Letbi məhkəmə qarşısına çıxıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, beş körpə oğlan və iki qızı öldürməkdə günahlandırılan tibb bacısı ittihamları rədd edir.

Letbinin 3 dəfə bir körpəni öldürməyə çalışdığı, digər körpəni isə hava vuraraq öldürdüyü iddia olunur.

Prokuror Nick Johnson KC, 18 ayda körpə ölümünün sürətlənməsindən narahat olduqlarını söyləyib.

Polisin araşdırması nəticəsində məlum olub ki, 2015-ci ilin ortalarından 2016-cı ilin ortalarına qədər iki körpə insulinlə öldürülüb.

İnsülinlə zəhərlənən daha iki körpənin tibb işçilərinin səyi nəticəsində xilas edildiyini deyən prokuror Conson, yenidoğulmuşlar şöbəsində kiminsə körpələri zəhərləyə biləcəyi heç kimin ağlına gəlməyib.

Bəzi körpələrin ailələri də məhkəmədə iştirak edib. İşin yekunlaşması altı aya qədər çəkə bilər.

**Turan**

## Su üzərində üzən ekoşəhər

20 min sakin üçün nəzərdə tutulub



**Təbii ehtiyatların ilbəil azalması və planet əhalisinin artması alimləri aktual problemlərin həlli üçün yeni yollar - ərzaq mənbələri və insanların yaşaması üçün azad ərazilər axtarmağa vadar edir.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, tanınmış belçikalı memar Vinsent Kallebot tərəfindən suyun səthində tikilə bilən futuristik şəhər konsepsiyası təklif olunub. Əsas material təkrar emal edilmiş plastik tullantılardan, yosunlardan hazırlanacaq və binalar 3D printerlərində çap ediləcək. Yaşayış strukturları meduza şəklində olacaq. Hər bir yaşayış binasının diametri təxminən 500 metr təşkil edəcək.

Memar yaşayış komplekslərinin yer hissəsində yerləşən bitkilərin yetişdirilməsi üçün hibrid təsərrüfatların köməyi ilə şəhərin ərzaqla təmin olunması problemini həll etməyi təklif edir.

Su üzərində olan şəhər 20 min sakin üçün nəzərdə tutulub.



# Nə gözəl ki, onların günüdür

Sosial şəbəkələr qız övladlarının şəkilləri ilə dolub-daşdı

**Oktyabrın 11-i dünyada Beynəlxalq Qızlar Günü kimi qeyd olunur. Məişətimizdə bayram ab-havası bir o qədər hiss olunmasa da, sosial şəbəkələr qız övladlarının şəkilləri ilə dolub-daşır. Valideynlər qızları ilə birgə olan fotolarını paylaşaraq onlara qarşı olan sonsuz sevgilərindən yazırlar.**

Könül istər ki, bütün valideynlər, xüsusən də "qız yükü, duz yükü" deyib 15 yaşlı qızını ərə verən atalar da bu paylaşımlardan nəticə çıxarsınlar. Həm də sadəcə bu gün yox, ayın bütün günlərində qızlarına qarşı mehriban və diqqətcil olsunlar...

Əvvəla onu deyək ki, BMT Baş Assambleyasının 2011-ci ildə verdiyi təklifə əsasən, 2012-ci ildən etibarən hər il 11 oktyabr tarixi Beynəlxalq Qızlar Günü kimi qeyd olunur. Bu günün keçirilməsində əsas məqsəd diqqəti qızların hüquqlarının müdafiəsinə, oğlan və qızlar arasında gender bərabərliyinin təmin olunmasına, müxtəlif növ ayrıseçkilikdən və baxımsızlıqdan əziyyət çəkən qızlara yönəltməkdir. Təhsil almaq, sosial hüquqlar, habelə uşaq yaşlarında ayrı-seçkilikdən, zorakılıqdan və məcburi evlilikdən müdafiə olunmaq həmin problemlər sırasındadır. Qız uşaqlarına səlahiyyət verilməsi, onların təhsil haqlarının təmin olunması, üzləşdikləri ayrı-seçkilik və zorakılıq hallarına qarşı mübarizə bəşəriyyətin inkişafı üçün vacibdir.





***"Bəs deyirdilər qız övladlar sevilmir, elə deyilmiş***

Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin də dediyi kimi, "Bir oğlana təhsil verməklə, bir təhsilli adam qazanırsız. Bir qıza təhsil verməklə, siz təhsilli ailə qazanırsız".

*(Davamı səh: 7-də)*

**Şəymən Bayramova**

## Hollivud ulduzu : "Məni "qoca" hesab etdikləri üçün dəyişdim"



**Hollivud ulduzu Skarlett Johansson qatıldığı bir proqramda karyerasının ilk illəri ilə bağlı diqqətçəkən açıqlamalar verib. Rejissor və senaristlərin onu əslində olduğundan "yaşlı" hesab etdikləri üçün istədiyi rolları oynaya bilmədiyini izah edən aktrisa bu səbəbdən "seksuallaşdığını" bildirib.**

**"Özümü ümidsiz hiss etdim, istədiyim rollara təklif ala bilmədim. Öz-özümə dediyimi xatırlayıram ki, insanlar mənim 40 yaşında olduğumu düşünürlər. Karyeramın əvvəlində hamı mənim daha yaşlı olduğumu və uzun müddətdir ki, aktyorluq etdiyimi düşündüyü üçün seksuallaşırdım".**

**"DailyMail"də yer alan xəbərə görə, 37 yaşlı aktrisa işlərin yaxşılığa doğru dəyişdiyini də ifadə edib: "İndi mən 20 yaşlarında gənc aktyorları görürəm, sanki onlara müxtəlif rollar oynamağa icazə verilir. İndi başqa zamandır, xoşbəxtlikdən indi aktyorlar kateqoriyalara bölünmür. İnsanlar daha dinamikdir".**

## Bütün evini yuxarıdan aşağıya cızdı

Rəssam bununla uşaqlıq arzusunu reallaşdırıb



**İngiltərədə yaşayan 28 yaşlı rəssam Sem Koks 6 otaqlı evini "doodle art" ilə örtüb uşaqlıq arzusunu həyata keçirib...**

**İngiltərənin Kent əyalətinin Tenterden qəsəbəsində yaşayan rəssam 1,5 milyon dollara aldığı 6 otaqlı evini tamamilə cızıb.**

**Doodling sənəti ilə məşğul olan və Mr. Doodle kimi tanınan Koks 2019-cu ildə aldığı evini iki ay ərzində əvvəlcə ağ kətana çevirib.**

**2 il işlədikdən sonra evini müxtəlif rəsmlərlə örtüb.**

**Doodle, yataq dəstindən tutmuş mətbəx texnikasına, pərdələrdən yataq örtüklərinə qədər evin hər küncünə cızırdı.**

**Bununla yanaşı, rəssam Doodle sənətini "Tesla" markalı avtomobilinə də tətbiq edib.**

**Rəssam evin xarici görünüşü üçün 401 qutu qara sprey boya, 286 şüşə qara rəsm boyası və daxili üçün 900 litr ağ boya işlədib.**

**Çılğın sənətçi həmçinin ev dəyişikliyini nümayiş etdirmək üçün 2020-2022-ci ilin sentyabr ayları arasında çəkilmiş 1857 fotoşəkli birləşdirərək animasiya filmi yaradıb.**

**Bütün evini və avtomobilini qələmə alan Koks bununla da arzusunu reallaşdırıb.**

**"Yataq örtüyü, pərdə və dəsmal kimi bir neçə əşyanı çap texnologiyası ilə cızmalı oldum, çünki onların yuyula biləcəyinə əmin olmaq istəyirdim. Mən əşyaların doxsan doqquz faizini əllərimlə cızdım, bu, mənim üçün çox vacib idi".**

**Koks deyib ki, bu qədər rəsmin ona "baş ağrısı" verəcəyini deyənlər var, amma doodlelərlə dolu otaqda oyanmaq onun üçün "cənnət" kimidir.**

**Turan**



# Kişilər qadınlardan daha tez qocalır

Alimlər bu nəticəyə gəlib ki, bədən-kütlə indeksi də yaşlanmaya təsir edir

**Alimlər kişilərin qadınlardan bioloji olaraq daha sürətlə qocaldığı reallığını ortaya qoyub. "NTV.com.tr"də yer alan məlumatda bildirilir ki, elmi araşdırmalar 50 yaşlı kişilərin eyni yaşda olan qadınlardan ən azı 4 yaş "böyük olduğunu" müəyyənləşdirib.**

Finlandiyada aparılmış araşdırma kişilərlə qadınlar arasındakı yaş fərqinin 20 yaşdan sonra hiss edilməyə başladığını müəyyən edib. Haqqında "The Journals of Gerontology: Series A" adlı elmi dərgidə yayımlanan elmi tədqiqat çərçivəsində minlərlə könüllünün xronoloji yaş həddi bioloji yaşlarıyla qarşılaşdırılıb. Eyni zamanda könüllülərin DNA məlumatlarına bağlı orqanizmin yaşlanma sürətini müəyyən edə bilən testlərdən istifadə edilib. Tədqiqat zamanı 2 min 240 nəfərin bioloji yaş həddi təqib edilib. Qruplar 2 hissəyə ayrılıb: 21-42 yaş arası və 50-76 yaş arası. İnsanların xronoloji yaşı ilə bioloji yaş hədləri arasındakı fərqi bilmək üçün 4 fərqli epigenik saat istifadə edilib. Epigenetika biologiyada DNA quruluşundakı dəyişikliklərdən qaynaqlanan, eyni zamanda irsi gen ifadəsi dəyişikliklərini incələyən elm sahəsidir. Epigenetik saat ilə yaş həddi genlər boyunca müəyyən bölgələrdə DNA metilyasiya vəziyyəti öyrənilir. Tədqiqat aparan alimlər hansı faktorların orqanizmdə yaşlanmanı sürətləndirə biləcəyini də araşdırıblar. Məsələn, təhsil illəri nə qədər olub, insan siqaret çəkəndirmi, içkiyə meyllidirmi, idmanla məşğul olurmu, həyat tərzi necədir və sair. Nəticələr bütün qruplar üzrə kişilərin qadınlardan daha sürətlə yaşlandığını göstərib. Alimlər bu nəticəyə gəlib ki, bədən-kütlə indeksi də yaşlanmaya təsir edir. Kişilər qadınlara nisbətən daha çox çəkiyə malikdir, kökəlməyə meyllidir, bu da yaşlanmanı sürətləndirir. Həmçinin qadınların kişilərə nisbətən daha gənc qalmasının bir səbəbi də onların kişilərdən fərqli olaraq xüsusi bir hormona - estrogen hormonuna sahib olmasıdır. Məhz bu hormon sayəsində qadınlar daha gec qocalır.



***"Kişilər qadınlara nisbətən daha çox çəkiyə malikdir, kökəlməyə meyllidir, bu da yaşlanmanı sürətləndirir"***

**Məlahət**

## Meşədə yaşayacaq

Müğənni xəyalını qurduğu evə qovuşdu



**Müğənni Kalben Sağdıç istirahət etmək, şəhərdən uzaqlaşıb mahnı yazmaq üçün meşədə ev axtarırdı. İnternetdə rastlaşdığı ev elanı tam ürəyincə oldu. Köməkçisi ilə Kazdağlarıdakı meşədəki evi görməyə gedən Kalben yolu belə olmayan evi bəyənib və alıb.**

Səkkiz yaşında anasının aldığı klaviatura ilə musiqi ilə maraqlanmağa başlayan Kalben 2007-ci ildə Bilkənt Universitetinin Beynəlxalq əlaqələr fakültəsini bitirib. 2016-cı ildə özünün adını daşıyan debüt albomunu musiqisevərlərə təqdim edən müğənni İbrahim Tatlısəsin "Haydi, söylə" mahnısını öz şərhi ilə oxuyaraq, adını kütlələrə çatdırıb.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, müğənni son vaxtlar sakitlik üçün meşədə ev axtarırdı. Nəhayət, istədiyini tapdı.

İnternetdə "satılır" elanını görərək evi bəyənən 36 yaşlı sənətçi vaxt itirmədən köməkçisi ilə Kazdağlarına gedib. Bir proqramçının əvvəllər özü üçün tikdiyi evi görən kimi heyrətə gəlib.

Minlərlə dekar meşə sahəsinin ortasında xüsusi yeri olan taxta dağ evi 300 min TL ödəyərək dərhal alıb.

Evə daxil olan Kalben qarşısında minlərlə kitabı görəndə təəccüblənib. Müğənni kitabları proqramçıdan da almaq istəyib. Bundan xəbər tutan ev sahibi kitabların çoxunu Kalbenə hədiyyə edərək jest edib.

Kalbenin hazırda tualeti çöldə olan evin təmiri üçün memarla görüşdüyü öyrənilib. Məşhur müğənni Kazdağlarında kəşf etdiyini yaxın dostlarına "Eynən yuxularımdakı kimi, başımı dincələcəyim yer" sözləri ilə danışır.

**Turan**

## İnsanlar Marsda 500 gündən çox işləyə biləcəklər



**Rusiya və Bolqarıstan astronomları tərəfindən Mars orbitində radiasiya səviyyəsinin ölçülməsi, Günəşdə yüksək aktivlik olduqda belə, ilk kosmonavtların Marsın səthində 500 gündən çox qalmasının mümkünlüyünü göstərir.**

Oxu.az xəbər verir ki, bu barədə bazar ertəsi Bolqarıstan Elmlər Akademiyasının Kosmik Tədqiqatlar və Texnologiyalar İnstitutunun professoru Yordanka Semkova bildirib.

"Biz Mars orbitində keçən ilin oktyabrında və bu ilin fevralında baş vermiş iki güclü Günəş partlayışını qeydə aldıq. Onlar kosmosda radiasiyanın fon səviyyəsini əhəmiyyətli dərəcədə artırdı, lakin eyni zamanda planetin səthindəki vəziyyətə az təsir etdi. Bizim hesablamalarımıza görə, gələcək kosmonavtlar və ya astronavtlar Marsın səthində hətta orbitdəki belə mühitdə də təxminən beş yüz gün işləyə biləcəklər", - deyə professor Semkova bəyan edib.

*Qeyd edək ki, Rusiyanın "ExoMars" zondunun göyərtəsində bolqar alimləri tərəfindən hazırlanmış yüksək həssas dozimetr olan "Lyulin" cihazı var. O, "ExoMars"ın göyərtəsindəki neytron detektoru ilə birgə alimlərə Marsa gələcək ilk səyahətçilərin nə qədər radiasiya udacağını təxmin etməyə imkan verib.*